RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 86 (8679) BAZAR, 25 aprel 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Azərbaycan növbəti milli marağını inamla təmin edir

## İlham Əliyev lider qətiyyəti ilə Zəngəzur dəhlizini də reallığa çevirir

İkinci Qarabağ müharibəsi Cənubi Qafqazda yeni siyasi reallıqlar yaradıb. Belə ki, müharibəyə qədər bölgənin aparıcı dövləti Azərbaycan ərazi bütövlüyünü təmin etdikdən sonra regiondakı lider statusunu daha da möhkəmləndirdi. Eyni zamanda Ermənistanın hərbi-siyasi məğlubiyyətə düçar edilməsi ilə Prezident İlham Əliyev xalqımızın tarixi-milli maraqlarının reallaşmasına da zəmin formalaşdırdı. Bunlardan biri vaxtilə Azərbaycan torpaqları olmuş Zəngəzur bölgəsinin indi bütün türk dünyasını birləşdirən körpüyə çevrilməsi üçün yetişmiş tarixi şəraitin reallaşdırılmasıdır.

### Ermənistanın işğal siyasətindən əl çəkməkdən başqa yolu yoxdur

Xatırladaq ki, ötən il noyabrın 10-da imzalanan və Ermənistanın məğlubiyyətinin hüquqi-siyasi təsdiqi olan üçtərəfli bəyanatın sonuncu bəndi bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpasını nəzərdə tutur. Üzərinə götürdüyü öhdəliyə əsasən Ermənistan vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir.

Rusiya Prezidenti Vladimir Putinin təklifi ilə bu il yanvarın 11-də Moskvada Azərbaycan və Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin iştirakı ilə keçirilən üçtərəfli görüşün də məqsədi noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatda göstərilmiş əsas nizamlama istiqamətləri üzrə növbəti addımların razılaşdırılması idi. Bütün bunlar regionda sülhün, təhlükəsizliyin və inkişafın təmin olunmasına xidmət edəcək tədbirlərin həyata keçirilməsini özündə ehtiva edir ki, bu da Azərbaycanın maraqlarına, Dağlıq Qarabağa və regional əməkdaşlığa dair siyasətinin məzmununa uyğundur.

Moskvada aparılan üçtərəfli danışıqlardan sonra Azərbaycan və Rusiya prezidentləri və Ermənistanın baş naziri bəyanat imzalayıblar. Bu sənəd bir daha ona dəlalət edir ki, Ermənistanın işğal siyasətindən əl çəkməkdən, regional əməkdaşlıqdan başqa yolu yoxdur. Çünki bəyanat 2020-ci il 10 noyabr tarixli bəyanatın 9-cu bəndinin regionda iqtisadi və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı hissəsinin reallaşdırılması ilə bağlıdır. Həmin bənd bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa olunmasını, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında nəqliyyat əlaqəsinin yaradılması məqsədilə yeni nəqliyyat kommunikasiyalarının inşasını nəzərdə tutur.

### Üçtərəfli işçi qrupu çərçivəsində işlər davam edir

Qeyd olunan nəqliyyat əlaqələrinin yaradılması və bərpası ilə Zəngəzur bölgəsi bütün türk dünyasını birləşdirən körpüyə çevriləcək. Bunu Prezident İlham Əliyev hələ 12 il əvvəl Azərbaycanın milli marağı kimi müəyyən etmişdi. 2009-cu il oktyabrın 3-də Naxçıvanda Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə görüşündə Prezident İlham Əliyev bununla bağlı demişdi: "Vaxtilə Azərbaycanın tarixi torpağı, əzəli torpağı Zəngəzur bölgəsinin Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməsi demək olar ki, böyük türk dünyasını coğrafi baxımdan parçaladı.

Ardı 3-cü səh.

# İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan C.Baydenin qondarma "erməni soyqırımı" ilə əlaqədar verdiyi bəyanatını qınadılar



**Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub.**

Telefon danışığı əsnasında dövlət başçıları ABŞ Prezidenti C.Baydenin qondarma "erməni soyqırımı" ilə əlaqədar verdiyi bəyanatını qınadılar.

Bu qərarın yanlış olduğunu qeyd edən Prezident İlham Əliyev onu tarixi səhv adlandırdı.

Dövlətimizin başçısı Azərbaycanın bu bəyanatı qəbuledilməz hesab etdiyini vurğuladı.

Söhbət zamanı Prezident İlham Əliyev açıqlamanın regionda yaranmaqda olan əməkdaşlıq meyillərinə ciddi zərər vurduğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycanın hər zaman Türkiyənin yanında olduğunu qeyd etdi.

Prezident Rəcəb Tayyib Ərdoğan dəstəyə və ifadə etdiyi mövqeyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. O da Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu diqqətə çatdırdı.

Dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin bütün sahələrdə yüksələn xətt üzrə inkişafından məmnunluqlarını ifadə etdilər.

***Prezidentin Mətbuat Xidməti***

# 10 müəssisə, 45 milyon manat sərmayə, 364 iş yeri

## İlham Əliyevin açılışını etdiyi Hacıqabul Sənaye Məhəlləsi ərazisi və investisiya dəyərinə görə Azərbaycanın ən böyük müvafiq obyektidir



Bu gün dünyada sənayenin yeni modellərin tətbiqi ilə inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Qlobal çağırışlarla uzlaşan sənaye parkları və sənaye məhəllələri, aqroparklar kimi mütərəqqi mexanizmlər innovativ müəssisələrin yaradılması, ixracyönümlü məhsulların istehsalının genişləndirilməsi üçün yeni imkanlar açır.

Son illər ölkəmizdə yaradılan sənaye park və məhəllələri bu sahədə fəaliyyət göstərən kiçik və orta sahibkarların dəstəklənməsinə, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasına xidmət edir.

Hazırda ölkəmizdə Sumqayıt Kimya Sənaye, Balaxanı, Qaradağ, Mingəçevir və Pirallahı sənaye parkları, Sumqayıt Texnologiya Parkı, Yüksək Texnologiyalar Parkı və Mingəçevir Yüksək Texnologiyalar Parkı, Neftçala, Masallı sənaye məhəllələri fəaliyyət göstərir. Aprelin 20-də onların sırasına biri də əlavə edildi.

Prezident İlham Əliyev ərazisi (20 ha) və investisiya dəyərinə görə (45,44 milyon manat) Azərbaycanın ən böyük sənaye məhəlləsi olan Hacıqabul Sənaye Məhəlləsinin açılışını etdi.

### 73 milyon manatdan çox yatırım

Ümumiyyətlə, ölkəmizdə sənayeləşmə artıq iri şəhərlərlə yanaşı, regionları da əhatə edir. Fəaliyyətdə olan sənaye məhəllələrinə indiyədək 73 milyon manatdan çox sərmayə yatırılıb, 286 iş yeri açılıb. Rezidentlər 96 milyon manatdan çox məhsul satışını həyata keçiriblər.

Sənaye məhəllələri kiçik və orta sahibkarlıq subyektləri üçün çox əlverişli imkanlar yaratdığı üçün komplekslərə böyük maraq var. Çünki məhəllələr sahibkarı həm məkan, həm də tikinti xərclərindən azad edir. Belə ki, sahibkar müraciət edərək məhəllədəki istehsalat korpuslarında istənilən həcmdə yeri icarəyə götürür. Həmin ərazidə isə bütün kommunal xidmətlər mövcuddur. Sadəcə olaraq avadanlıqlar quraşdırılır və istehsala başlanılır. Sahibkar dövlətə yalnız götürdüyü sahəyə uyğun icarə haqqı verir.

Ardı 3-cü səh.

# Turistlər Azərbaycanın nadir palçıq vulkanlarını da görə biləcəklər

## Prezidentin yeni turizm kompleksinin təməlini qoyması postpandemiya dövrünə hazırlığın daha bir nümunəsidir

Postpandemiya dövründə Azərbaycan dünyaya özünün bir çox ərazisini yeni turizm destinasiyası kimi təqdim edəcək. Təbii ki, bu, ilk növbədə düşmən tapdağından azad etdiyimiz, yenidən tikib-quracağımız Qarabağın turizmin inkişafı üçün zəngin olan potensialı ilə bağlıdır. Bununla yanaşı, ölkəmizin digər ərazilərində də yeni-yeni turizm komplekslərinin yaradılması üçün geniş imkanlar var.

Azərbaycanda qeyri-neft sektorunun mühüm bir qolu kimi turizmin inkişafına böyük diqqət yetirilir. Bu istiqamətdə həyata keçirilən tədbirlər son illər ölkəmizə dünyanın hər yerindən turist axınına səbəb olmuşdu. Araya pandemiya düşdü və hər yanda olduğu kimi, yurdumuzda da həmişə qələbəliyi ilə diqqəti cəlb edən turizm cığırlarına sükut çökdü. Lakin dövlət indinin özündə belə bu sahənin inkişafını diqqətdən kənarda qoymur. Koronavirusun hökm sürdüyü dövrdə də turizmin gələcək inkişafı üçün tədbirlər davam etdirilir.

Ardı 5-ci səh.



# Pandemiyanın sonunu görmək üçün qaydalara əməl etmək vacibdir

Dünyada koronavirus xəstələrinin sayı sürətlə artır... Təəssüf ki, bir ildən çoxdur hər birimizin həyatını təhdid edən pandemiya barədə xəbərlər hələ də bu məlumatla başlayır.

Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən hər gün yenilənən statistika ümidlə gözlədiyimiz sonun yaxınlaşdığını, COVID-19-un bitməkdə olduğunu hələ ki, göstərmir. Əksinə, son günlər dünyanın əksər ölkəsində təhlükəli virusa yoluxanların və ölənlərin sayı yüksəlməkdə davam edir. Artıq COVID-19-dan ölüm hallarının ümumi sayı üç milyonu ötüb. Yenə də koronavirusa yoluxma sayına görə birinci yerdə ABŞ dayanır. Virusa yoluxma sayına görə ilk beşlikdə olan digər ölkələr isə Hindistan, Braziliya, Fransa və Rusiyadır.

Azərbaycanla həmsərhəd olan digər ölkələrdə - Türkiyədə, İranda, Gürcüstanda və Ermənistanda da COVID-19-la bağlı vəziyyət mürəkkəb olaraq qalır. Məlumat üçün bildirək ki, sərhəd qonşularımız arasında koronavirusdan ən çox ölüm ardıcıl olaraq Rusiyada, İranda və Türkiyədə qeydə alınıb.

Təəssüf ki, ölkəmizdə də koronavirusa yoluxanların və bu xəstəlik səbəbindən həyatını itirənlərin sayı hələ də azalmır. Azərbaycanda COVID-19-a bölgələr üzrə yoluxma göstəriciləri açıqlanıb. Ölkəmizdə koronavirusa yoluxma hallarının 54,2 faizi paytaxtın payına düşüb. Bundan başqa, həmin göstərici Abşeron rayonunda 12,8, Aran rayonlarında 12, Gəncə-Qazax bölgəsində 7,5, Şəki-Zaqatalada 4, Quba-Xaçmazda 3, Lənkəranda 2,5, Dağlıq Şirvanda 2,4, Yuxarı Qarabağda 1,3, Naxçıvan Muxtar Respublikasında 0,04 faiz təşkil edir. Ölkə xaricindən idxalolunma halı 0,3 faizdir.

Əslində bu faktlar hər bir insanın özünə və ətrafındakılara qarşı daha diqqətli olması, mütəxəssislər tərəfindən edilən xəbərdarlıqlara ciddi yanaşması ilə nəticələnməlidir. Bu məsələdə vətəndaş məsuliyyətinin əhəmiyyəti çox böyükdür.

Ardı 6-cı səh.

# Paşinyan repressiyaların yeni dalğasını başladır

Ermənistanın baş naziri Nikol Paşinyanın Zəngəzur vilayətinə səfərindən sonra ölkədə siyasi gərginlik yenidən özünün pik həddinə çatıb. Səbəb hüquq mühafizə orqanları tərəfindən aparılan son həbslərdir. Ölkənin İstintaq Komitəsi artıq Zəngəzur vilayətindən olan 19 müxalifətçini Nikol Paşinyanın regiona səfəri zamanı xuliqanlıq və ictimai asayişi pozan kütləvi tədbirlər təşkil etməkdə günahlandıraraq məsuliyyətə cəlb edib.

Qurumun məlumatında deyilir: "Əldə olunmuş kifayət qədər dəlil əsasında 19 nəfərə qarşı ittiham irəli sürülüb. Onlardan 9-u Ermənistan Cinayət Məcəlləsinin 258-ci maddəsinin 3-cü bəndi (xuliqanlıq), 10-u isə 258-ci maddənin 1-ci bəndi (ictimai asayişi pozan kütləvi tədbirlərin təşkili) ilə ittiham olunub. İstintaq 8 nəfərə qarşı həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı məhkəməyə müraciət edib".

Ermənistan Baş Polis İdarəsinin rəis müavini Ara Fidanyan daha bir neçə nəferin də saxlanıldığını qeyd edir: "Zəngəzurda əməliyyat-axtarış fəaliyyətinin nəticələrindən sonra bir neçə vətəndaş hüquq mühafizə orqanları əməkdaşları tərəfindən saxlanılıb".

Bundan əvvəl isə Mehri şəhərinin meri Mxitar Zakaryanın hüquq mühafizə orqanları tərəfindən Yerevana aparıldığı açıqlanıb. Fidanyan barəsində cinayət işi başlanılmış Zakaryanın prosessual vəziyyəti barədə suala cavabında bildirib ki, bu, istintaq prosesindən sonra aydınlaşdırılacaq.

Ardı 8-ci səh.

## X.M.İbrahimovanın Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında və Lixtenşteyn Knyazlığında fövqəladə və səlahiyyətli səfiri vəzifələrindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Xanım Məmməd qızı İbrahimova Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında və Lixtenşteyn Knyazlığında fövqəladə və səlahiyyətli səfiri vəzifələrindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2021-ci il*

## "Azərbaycan Sənaye Korporasiyası" ASC-nin Müşahidə Şurasının iclası keçirilib

"Azərbaycan Sənaye Korporasiyası" ASC-nin Müşahidə Şurasının sədri, Azərbaycan Respublikası Prezidentinin köməkçisi Natiq Əmirovun sədrliyi ilə şuranın növbəti iclası keçirilib.

ASC-dən AZƏRTAC-a bildirilib ki, iclasda şura üzvləri - Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Xalid Əhədov, iqtisadiyyat naziri Mikayıl Cabbarov, maliyyə naziri Samir Şərifov, kənd təsərrüfatı naziri İnam Kərimov, həmçinin "Azərbaycan Sənaye Korporasiyası"nın Baş direktoru Kamran Nəbizadə və korporasiyanın digər vəzifəli şəxsləri iştirak ediblər.

Videokonfrans formatında keçirilən iclasda "Azərbaycan Sənaye Korporasiyası" ASC-nin 2020-ci ilin yekunları üzrə maliyyə göstəriciləri, o cümlədən digər cari məsələlər müzakirə olunub, korporasiyanın fəaliyyətinə dair hesabatlar dinlənilib, müvafiq qərarlar qəbul edilib, eyni zamanda, Müşahidə Şurası tərəfindən strateji hədəflərlə bağlı əhəmiyyətli tövsiyələr verilib.

## Səhiyyə nazirinin birinci müavini Teymur Musayev kollektivə təqdim edilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 23-də imzaladığı sərəncama əsasən, Teymur Yusif oğlu Musayev Azərbaycan Respublikası səhiyyə nazirinin birinci müavini təyin edilib. Digər sərəncamla Azərbaycan Respublikası səhiyyə nazirinin vəzifələrini müvəqqəti icra etmək səlahiyyəti səhiyyə nazirinin birinci müavininə verilib.

Aprelin 24-də Azərbaycan Respublikası Baş naziri Əli Əsədov səhiyyə nazirinin birinci müavini Teymur Musayevi nazirliyin kollektivinə təqdim edib. Tədbirdə nazirliyin kollegiya üzvləri iştirak ediblər. Bu barədə AZƏRTAC-a nazirliyin Mətbuat xidmətindən bildirilib.

Baş nazir çıxış edərək dövlət başçısının aprelin 23-də imzaladığı sərəncamları diqqətə çatdırıb. Teymur Musayevi təyinat münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb. Bildirib ki, T.Musayev bir sıra məsul vəzifələrdə fəaliyyət göstərib. Bu sahədə təcrübə, səriştə və idarəçilik bacarığına malikdir. Dövlət başçısının müvafiq sərəncamına əsasən, Teymur Musayevin, həmçinin səhiyyə nazirinin vəzifələrini müvəqqəti icra edəcəyini vurğulayan Əli Əsədov onun bu yüksək etimadın öhdəsindən gələcəyinə ümidvar olduğunu bildirib. Qeyd edib ki, nazirlik sistemində, ayrı-ayrı sahələrdə başlanan islahatlar prosesi davam etdirilməlidir.

Baş nazir Teymur Musayevə və nazirliyin kollektivinə qarşıda duran vəzifələrin həyata keçirilməsində uğurlar arzulayıb.

Təqdimat mərasimində çıxış edən T.Musayev ona göstərilən yüksək etimada görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlığını bildirib. T.Musayev qeyd edib ki, dövlət başçısının təşəbbüsü ilə bu gün bütün sahələrdə gənc, peşəkar, vətənsevər kadrlara etimad göstərilir. Fəaliyyəti zamanı dövlətçilik, yüksək peşəkarlıq, şəffaflıq və ədalət prinsiplərini daim özünə rəhbər tutacaq.

# Milli Məclisin sədri Sahibə Qafarovanın TBMM sədri ilə telefon danışığı olub

**Aprelin 24-də Milli Məclisinin sədri Sahibə Qafarova ilə Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentop arasında telefon danışığı olub.**



Sahibə Qafarovanın təşəbbüsü ilə baş tutan telefon danışığı zamanı qardaş ölkə parlamentlərinin spikerləri Amerika Birləşmiş Ştatları Prezidenti Cozef Baydenin qondarma "erməni soyqırımı" ilə əlaqədar verdiyi bəyanatını qınadıqlarını ifadə ediblər.

Milli Məclis sədri sözügedən bəyanatın tarixi xəta olduğunu və qəbuledilməz xarakter daşıdığını ifadə edib, bu xətadan tezliklə dönüləcəyinə ümidvar olduğunu dilə gətirib. Parlamentin spikeri son dövrlər region dövlətləri arasında sülh və hərtərəfli əməkdaşlıq üçün ümidlərin yarandığı və bu tip bəyanatların bu ümidlərin üstündən xətt çəkmək potensialı daşıdığını dilə gətirib.

Tarixin siyasiləşdirilməsinin çox təhlükəli bir meyil olduğunu ifadə edən Milli Məclisin sədri Azərbaycanın hər zaman qardaş Türkiyəni dəstəklədiyini vurğulayıb.

Qardaş Türkiyənin parlament sədri Mustafa Şentop tutduğu mövqe və göstərdiyi dəstəyə görə Milli Məclisin sədri Sahibə Qafarovaya təşəkkür edib. TBMM sədri ABŞ Administrasiyasının atdığı bu addımın böyük bir səhv olduğunu və bu səhvin ən qısa müddətdə aradan qaldırılacağına ümid etdiyini bildirib.

Sonda spikerlər Azərbaycan ilə Türkiyə arasında mövcud olan əməkdaşlıq və parlamentlərarası münasibətlərə dair fikir mübadiləsi aparıblar.

## Azərbaycan və Türkiyənin xarici işlər nazirləri Ceyhun Bayramov ilə Mövlud Çavuşoğlu arasında telefon danışığı olub

Aprelin 24-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov bəzi ölkələrin rəhbərlərinin 1915-ci il hadisələrini siyasiləşdirmək cəhdlərinin qəbuledilməz olduğunu deyib və ABŞ Prezidentinin erməni anım günü ilə bağlı bəyanatının tarixi həqiqətlərin təhrifi olduğunu vurğulayıb.

Bir əsr bundan öncə baş verən hadisələr yanlış təqdim edilərkən, 30 il bundan əvvəl Ermənistan tərəfindən Xocalıda azərbaycanlılara qarşı törədilən soyqırımına hələ də ədalətli qiymətin verilməməsinin qərəzlilik və ikili standart nümunəsi olduğu türkiyəli həmkarın diqqətinə çatdırılıb.

Nazirlər tarixin saxtalaşdırılmasının və onun siyasi məqsədlər üçün istifadə edilməsinin qəbuledilməz olduğunu qeyd ediblər.

# Milli Məclisin sədri: "Fransa Senatı spikerinin bəyanatları onun ölkəsinin Minsk qrupu həmsədri kimi üzərinə götürdüyü öhdəliklərlə qətiyyən uzlaşmır"

**Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova Fransa Senatının sədri Jerar Larşenin bu günlərdə Ermənistanda verdiyi qərəzli və birtərəfli açıqlamalarına kəskin reaksiya verib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Milli Məclis sədri fransalı spiker tərəfindən verilən bəyanatların onun ölkəsinin Minsk qrupu həmsədri kimi üzərinə götürdüyü öhdəliklərlə qətiyyən uzlaşmadığını söyləyib.

O qeyd edib ki, Senatın sədri öz açıqlamalarında bir tərəfdən Minsk qrupunun fəaliyyətinin yenidən canlandırılmasına, onun işinə yeni impuls verilməsinə çağırış edir, digər tərəfdən isə açıq ermənipərəst və anti-Azərbaycan, anti-Türkiyə mövqe nümayiş etdirir. Senat sədrinin Yerevanda təşkil edilmiş bir sərgidə gördüklərinə əsaslanaraq Türkiyədə və "arsax"da "erməni mədəniyyətinin izləri"nin silinməsindən bəhs etməsi, sadə dillə desək, siyasi ciddiyyətdən uzaqdır.

Sahibə Qafarova vurğulayıb ki, əgər Fransa Senatının sədri həqiqətən tərəfsiz və ədalətli olmaq niyyəti güdmüş olsaydı, səfərini təkcə Ermənistana deyil, regiona edər, Azərbaycana da rəsmi səfərə gələrdi, işğaldan yenicə azad olunmuş ərazilərimizdə 30 il ərzində Ermənistan tərəfindən törədilmiş vandalizm və barbarlığı, bu gün "Qafqazın Xirosiması" adlandırılan Ağdam şəhərini öz gözləri ilə görmüş olardı: "Belə bir səfər Senat sədrinə həm də ölkəmizdə digər xalqların dininə, mədəniyyətinə, tarixinə göstərilən hörmətin şahidi olmaq imkanı verərdi. Hər şeydən əvvəl, elə məhz erməni xalqının dininə və mədəniyyətinə göstərilən hörməti, Bakının mərkəzində hələ də mövcud olan erməni kilsəsini görərdi. Bu isə ona 30 illik işğal dövründə Ermənistan tərəfindən Azərbaycan ərazilərindəki dini və mədəni abidələrin yerlə yeksan edilməsi, məscidlərimizdə inək və donuz saxlanılması ilə müqayisələr aparmaq imkanı verərdi. Lakin təəssüf edirəm ki, fransalı həmkarım belə bir addım atmaq əvəzinə, qərəzli və birtərəfli mövqe tutmağa üstünlük verib".

Spiker həmçinin Azərbaycan tərəfindən saxlanıldığı iddia olunan erməni əsilli hərbi əsirlər məsələsinə dair Senat sədrinin fikirlərini də şərh edib: "Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, 10 noyabr bəyanatından sonra Azərbaycan ərazisinə göndərilmiş diversant qrupunun üzvləri hərbi əsir deyil və bu cür dəyərləndirilə bilməz. Bu, təkcə bizim dediyimiz bir şey deyil, beynəlxalq hüquq da sözügedən məsələni məhz bu cür tövsif edir. Buna görə də Fransa Senatının sədri tərəfindən bu kontekstdə Azərbaycana qarşı səsləndirilən ittihamları qəbul etmir, əvəzində Larşeni bu gün də mülki əhalinin və hərbçilərin həyatlarına son qoyan, sağlamlıqlarını itirməsinə səbəb olan minalanmış ərazilər məsələsinə diqqət yetirməyə çağırırıq. Yaxşı olardı ki, Senat sədri Fransanın Minsk qrupunun həmsədri olması prizmasından çıxış edərək, Ermənistanı minalanmış ərazilərin xəritələrini verməyə məcbur edəydi. Bununla da dünya birliyinin Ermənistana bu istiqamətdə verdiyi çağırışlara dəstək vermiş olardı".

## Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların ABŞ Prezidentinin qondarma "erməni soyqırımı" məsələsi ilə bağlı mövqeyinə dair bəyanatı

Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar ABŞ Prezidentinin qondarma "erməni soyqırımı" məsələsi ilə bağlı mövqeyinə dair bəyanat yayıb. AZƏRTAC bəyanatı təqdim edir.

"Tarixi saxtakarlıqlar üzərində qurulmuş erməni dövlətçiliyi bütün dövrlərdə müxtəlif təxribatlara əl atıb. Onilliklər ərzində erməni təbliğat maşını və onun havadarları Osmanlı imperiyasında ermənilərə qarşı "soyqırımı" törədildiyini sübut etməyə və bütün dünyanı buna inandırmağa cəhd göstərib. Həqiqət isə odur ki, Birinci Dünya müharibəsi zamanı çətin döyüş şəraiti, daxili münaqişələr, aclıq və xəstəliklər üzündən çoxlu sayda erməni həyatını itirib. Lakin məqsədyönlü şəkildə unudulur ki, həmin dövrdə ermənilərdən daha çox türklər həlak olub.

Əgər məqsəd tarixi faktların obyektiv araşdırılmasıdırsa, siyasi məqsədlərə görə tarixi reallıq təhrif edilməməli və iş bu sahədə ixtisaslaşdırılmış beynəlxalq tədqiqat institutlarına, həmçinin tanınmış tarixçilərə həvalə edilməlidir. Türkiyə öz arxivlərini tarixçilərə açmağa hazır olduğunu dəfələrlə bildirib və həqiqəti üzə çıxarmaq naminə birgə komissiyanın yaradılması təklifini irəli sürüb.

Rəsmi İrəvanın məkrli siyasətinin arxasında onlara təzminat ödənilməsi və Türkiyə ərazisinin bir hissəsinin Ermənistana verilməsi kimi cəfəng tələb və iddialar durur. Erməni ədəbiyyatında Türkiyənin şərq əyalətlərinin "Qərbi Ermənistan" adlandırılması da həmin iddiaların rəsmiləşdirilməsinə xidmət edir.

Ermənistanın tarixi faktların saxtalaşdırılması və ekspansiya siyasəti yalnız qardaş Türkiyəyə qarşı deyil, uzun illər ərzində Azərbaycana qarşı da həyata keçirilib. Təkcə 1918-ci ilin mart soyqırımı zamanı 12 mindən çox türk-müsəlman öldürülüb. Onların çoxunun meyitləri tapılmayıb. XX əsrin digər faciəsi Xocalı soyqırımıdır. 1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri tərəfindən 7 min əhalisi olan Xocalı şəhərində amansız cinayət törədildi. Baş vermiş bu faciələr təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdəndir. Aqressiv erməni siyasətinin bariz təcəssümü olan bu cinayətlərin uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almaması ikili standartlar siyasətinin təcəssümüdür.

Son dövrlər qondarma "erməni soyqırımı" iddialarının dünya gündəmində yer almasının səbəbkarı təkcə Ermənistan və erməni lobbisi deyil, həmçinin regionla bağlı imperialist maraqlar güdən qlobal güclərdir. Qondarma "erməni soyqırımı" anlayışı yalnız siyasi təzyiq alətidir və ikili standartlar siyasətinin təzahürüdür. Yaxşı olardı ki, "tarixi həqiqətlər axtarışı"nda olan qüvvələr erməni millətçilərindən Mərkəzi Anadoluda törətdikləri amansız qətllərin hesabını istəyərdilər.

Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar hər zaman qardaş Türkiyənin yanında olduqlarını bildirir və xəstə erməniçilik idealları bəsləyən ABŞ Prezidentinin qondarma "erməni soyqırımı" məsələsinə dair mövqeyini qətiyyətlə pisləyirlər. Ölkələr və xalqlar arasında dözümsüzlük təlqin edən bu cür yanaşmalar ayrı-ayrı regionların və ümumilikdə bəşəriyyətin dayanıqlı sülhpərvər inkişafına təhdid törədir.

1. Yeni Azərbaycan Partiyasının sədr müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov
2. Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı
3. "Ana Vətən" Partiyasının sədri Fəzail Ağamalı
4. Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev
5. Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa
6. Vəhdət Partiyasının sədri Tahir Kərimli
7. Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev
8. Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə
9. Vətəndaş Birliyi Partiyasının sədri Sabir Hacıyev
10. Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev
11. REAL Partiyasının sədri İlqar Məmmədov
12. Azərbaycan Ümid Partiyasının sədri İqbal Ağa-zadə
13. Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Fəttayev
14. Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn
15. Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu
16. Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev
17. Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev
18. Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə
19. Ağ Partiyanın sədri Tural Abbaslı
20. "Ədalət" Partiyasının sədri İlyas İsmayılov
21. Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev
22. Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev
23. Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər
24. Azərbaycan Liberal Demokrat Partiyasının sədri Fuad Əliyev
25. "Milli Vəhdət" Partiyasının sədri Yunus Oğuz
26. Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli
27. Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov
28. Azərbaycan Sosial Demokrat Partiyasının sədri Araz Əlizadə
29. Yeni Zaman Partiyasının sədri Musa Ağayev
30. Azərbaycan Sosial Rifah Partiyasının sədri Əsli Kazımova
31. Cümhuriyyət Xalq Partiyasının sədri Bədrəddin Quliyev
32. Müstəqil Xalq Partiyasının sədri Əflan İbrahimov
33. "Birlik" Partiyasının sədri Xudadat Xudiyev
34. Vahid Azərbaycan Milli Birlik Partiyasının sədri Hacıbaba Əzimov
35. Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov
36. Azərbaycan Respublikaçılar Partiyasının sədri Sübut Əsədov
37. Azərbaycan Azad Respublikaçılar Partiyasının sədri Kamil Seyidov
38. Azadlıq Partiyasının sədri Əhməd Orucov
39. Azərbaycan Təkamül Partiyasının sədri Teyyub Qənioğlu
40. Azərbaycan Milli Demokrat Partiyasının sədri Tufan Kərimov
41. Azərbaycan Liberal Partiyasının sədri Əvəz Temirxan
42. "Qorqud" Partiyasının sədri Firudin Kərimov
43. Milli Demokrat İdrak Partiyasının sədri Osman Əfəndi
44. Milli Konqres Partiyasının sədri İxtiyar Şirinov
45. Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu
46. Sosial Ədalət Partiyasının sədri Mətləb Mütəllimov
47. Azərbaycan Kommunist Partiyası - Hacı Hacıyev, Rauf Qurbanov
48. "Azərbaycan Mübarizləri" Partiyasının sədr müavini Səadət Müslümova

## Mustafa ŞENTOP: "1915-ci il hadisələrinin soyqırımı olaraq tanınması üçün beynəlxalq hüququn müəyyən etdiyi şərtlərin heç biri yoxdur"

Erməni tərəfinin tarixi gerçəklərə zidd olaraq ortaya atdığı və digər ölkələrə də qəbul etdirməyə çalışdığı qondarma soyqırımı iddiaları Türkiyə ilə Ermənistan arasında əlaqələrin normallaşdırılması səylərinə kölgə salmaqdadır. Ümidvarıq ki, bu cür əsassız yanaşma və proseslər artıq sona çatır. Biz Türkiyə olaraq sülh zəminində uzlaşmaq üçün çoxistiqamətli addımlar atmağa davam edəcəyik.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop 1915-ci il hadisələrinə münasibət bildirərkən söyləyib.

Erməni terror təşkilatı ASALA tərəfindən amansızcasına qətlə yetirən türk diplomatlarının xatirəsini Ankaradakı "Cebeci Asri" məzarlığında dövlət və hökumət nümayəndələri ilə birlikdə ehtiramla yad edən Türkiyə parlamentinin rəhbəri deyib: "1973-cü ildən başlayaraq tarixdə bərabəri olmayan alçaqlıqla törədilən terror aktları türk diplomatlara qarşı illərlə davam edən bir terror dalğasını gətirib".

"Elçiyə zaval olmaz" ifadəsini xatırladan Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop müasir dünyanın gözləri qarşısında bu anlayışın erməni terror təşkilatları tərəfindən heçə sayıldığını və bu terror aktlarını törədən cinayətkarların bəzi ölkələrdə tələb olunan səviyyədə cəzalandırılmamasından təəssüfləndiyini ifadə edib. Parlamentin sədri bildirib ki, soyqırımı anlayışı son dərəcə aydın bir təsəvvürdür. 1915-ci il hadisələrinin soyqırımı olaraq tanınması üçün beynəlxalq hüququn müəyyən etdiyi şərtlərin heç biri yoxdur.

Xatırladaq ki, erməni terror təşkilatlarının 1973-cü ildən başlayaraq xaricdə yaşayan türklərə qarşı törətdikləri terror aktları nəticəsində 31-i diplomat və onların ailə üzvləri olmaqla, ümumilikdə 58 Türkiyə vətəndaşı qətlə yetirilib. Həmin terrorçuların əksəriyyəti Ermənistan dövləti tərəfindən qəhrəmanlaşdırılıb. Terrorçular Ermənistan hökumətinin qərarı ilə bu ölkədə təntənə ilə dəfn edilir. Onların cəsədləri ayrı-ayrı ölkələrdən gətirilərək İrəvandakı hərbi qəbiristanlıqda basdırılır, terrorçulara abidə qoyulur.

# Bayden uydurma tarixi təsdiqləmək iddiasına düşüb

## ABŞ lideri erməni faşizminin dəyirmanına su tökür

Gözlənildiyi kimi, ABŞ Prezidenti Co Bayden dünən verdiyi bəyanatda 1915-ci ildə Osmanlı imperiyasının ərazisində baş vermiş hadisələri "erməni soyqırımı" kimi qiymətləndirmişdir. Amerika lideri bildirmişdir ki, "Osmanlı dövründə erməni soyqırımı zamanı ölənlərin hamısını xatırlayırıq". Ağ ev rəhbərinin dediyinə görə, söhbət Türkiyəni günahlandırmaqdan yox, tarixin təsdiqlənməsindən gedir: "Ermənilərin tarixinə hörmət edirik. Bu kədəri görürük. Tarixi təsdiqləyirik. Bunu kimisə günahlandırmaq üçün deyil, bir daha əsla yaşanmaması üçün edirik".

Beləliklə, ABŞ Prezidenti verdiyi bəyanatla tarixi təsdiqləmək iddiasına düşmüş, başqa sözlə, tarixi hadisələrə tərif vermək səlahiyyətini mənimsəmişdir. Bu dövlətin rəhbərinə belə bir səlahiyyəti kimin verdiyi hələ heç kimə məlum deyil. İnsanların kütləvi şəkildə öldürülməsi hadisəsini soyqırımı kimi yalnız beynəlxalq məhkəmə tövsif edə bilər. Belə olan təqdirdə bir dövlətin liderinin beynəlxalq məhkəmənin səlahiyyətini qəsb etmək cəhdi özünü açıq-aşkar büruzə verir.

Aydın məsələdir ki, hər hansı dövlətin, o cümlədən ABŞ-ın tarixi hadisələrə qiymət vermək hüququ yoxdur. Ona görə də Baydenin "erməni soyqırımı" ifadəsi işlətməsi tarixin yenidən yazılması mənasına gələ bilməz.

ABŞ liderinin bəyanatı istər Türkiyədən, istərsə də Azərbaycandan sərt reaksiya ilə qarşılanmışdır. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirmişdir ki, sözlər tarixi dəyişdirə, yaxud yenidən yaza bilməz: "Tariximiz haqqında kimdənsə dərs alan deyilik. Siyasi fürsətçilik sülhə və ədalətə ən böyük xəyanətdir. Tək istinadgahı populizm olan bu bəyanatı tamamilə rədd edirik". Türkiyə Prezidenti administrasiyasının rəsmi nümayəndəsi İbrahim Kalın isə qeyd etmişdir ki, "yeganə gündəmi ölkəmizə qarşı düşmənçilik olan dairələrin böhtanlarını təkrarlayan ABŞ Prezidentinin bəyanatını qətiyyətlə pisləyir və rədd edirik". O, ABŞ Prezidentinə öz tarixinə və bu gününə baxmağı tövsiyə etmişdir.

Azərbaycan Xarici İşlər Nazirliyi də sərt bəyanatla çıxış edərək Baydenin "erməni soyqırımı" hədyanını pisləmişdir. Nazirlik nəzərə çatdırmışdır ki, tarixi saxtalaşdırmaq və onu yenidən yazmaq cəhdi qəbuledilməzdir.

Bəs ABŞ liderinin bəyanatından sonra nə dəyişə bilər? Erməni millətçiləri nəyə nail ola bilərlər? Birmənali şəkildə demək olar ki, erməni tərəfi Ağ evdən "soyqırımı" sözü eşitməklə faktiki olaraq heç nə qazanmayacaq.

Tarixi təsdiqləmək iddiasında olan ABŞ administrasiyasının başçısı, bir tərəfdən, sülh və ədalətdən dəm vurur, digər tərəfdən isə, son 30 il ərzində erməni faşistlərinin Azərbaycan torpaqlarında törətdikləri vandalizm əməllərini, onların yüz minlərlə azərbaycanlını yurd-yuvalarından didərgin salmasını, Xocalı soyqırımını gözardı edir. Baydenin məlum bəyanatı yalnız erməni canilərinin ayaqları altına daş qoya və onları yeni-yeni cinayətlər törətməyə sövq edə, erməni faşistlərinin dəyirmanına su tökə bilər. Eyni zamanda Baydenin mövqeyi onsuz da mürəkkəb olan ABŞ-Türkiyə əlaqələrini daha da pisləşdirəcək.

Heç kimə sirr deyil ki, "soyqırımı" oyununu oynamaqda yeganə məqsəd ilk növbədə Türkiyəni daim təzyiq altında saxlamaqdır. Amma Ankara təzyiqə öyrəncəlidir və təzyiq qarşısında geri çəkilmək fikrində deyil.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

## Ağdam şəhərinə gedən avtomobil yolunun yenidən qurulmasına başlanılıb

Azərbaycanın işğaldan azad edilən ərazilərində Böyük Qayıdışı yaxınlaşdıran daha bir layihənin icrasına başlanılıb. Bu, Ağdam şəhərinə gedən avtomobil yolunun yenidən qurulmasıdır.

Ağdam rayonunun Təzəkənd kəndi istiqamətində yolun yenidən qurulması ilə bağlı görülən işlər məmnunluq doğurur. Mühəndis Yunis Allahverdiyev AZƏRTAC-a bildirib ki, avtomobil yolu birinci texniki dərəcəyə uyğun olaraq 26,5 metr enində layihələndirilib. Yolda 2 gediş, 2 gəliş olmaqla, 4 hərəkət zolağı nəzərdə tutulub. Yol çiyinlərinin eni 3 metr, ayırıcı zolağının eni 2 metr, bərkidici zolaqlar isə 0,75 metrdir. Avtomobil yolunun üzərində 4 ədəd körpü, həmçinin suötürücü borular, mal-qara keçidləri inşa ediləcək. Başlanğıcını Bərdə şəhərindən götürən avtomobil yolunun uzunluğu 45 kilometrdən artıqdır. Hazırda şərti olaraq yolun 14-24-cü kilometrliyində yol yatağının inşası işləri həyata keçirilir. Yolun işğaldan azad olunan ərazilərdən keçən hissəsi minalardan və partlamamış sursatlardan təmizləndikcə həmin hissələrdə də tikinti işləri aparılacaq.

# Zəngəzur dəhlizi türk dünyasını birləşdirən körpü olacaq



Vətən müharibəsində qazanılmış tarixi Qələbə nəticəsində işğal altında olan torpaqlarımız həmişəlik azad edilməklə ölkəmizin ərazi bütövlüyü tam bərpa edildi. İndi isə qarşıda dayanan əsas məsələ işğaldan azad edilmiş ərazilərimizlə yanaşı, bölgədəki nəqliyyat əlaqələrinin də bərpasıdır. İnanırıq ki, xalqımız Azərbaycan torpağı olan və 101 ildir ki, əsas parçasından ayrı düşmüş Zəngəzura qayıdacaq.

AZƏRTAC xəbər verir ki, bunu Milli Məclis sədrinin müavini Adil Əliyev bildirib.

Sədr müavini Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında ötən il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın 9-cu bəndinin Zəngəzura qayıdış üçün zəmin yaratdığını bildirib. Eyni zamanda, cari ilin yanvarın 11-də Moskvada imzalanmış 4 bəndlik bəyanat Zəngəzur dəhlizinin reallaşması üçün hüquqi əsas verir.

A.Əliyev qeyd edib ki, Zəngəzur dəhlizi tarixi torpağımız olmaqla yanaşı, ölkəmizi qardaş Türkiyə vasitəsilə bütöv bir dünyaya bağlayan strateji yol olacaq: "Zəngəzurun bizdən alınaraq Ermənistana birləşdirilməsi, eyni zamanda, türk dünyasını parçalamaq məqsədi daşıyırdı. İndi isə tarixi Azərbaycan torpağı olan Zəngəzur türk dünyasını birləşdirən bir körpü olacaq. Bu yol bir əsrdən artıq bir-birindən ayrı qalan ərazilərimizi bir-birinə bağlamaqla yanaşı, həm də Avropa ilə Asiya arasında əsas tranzit xəttin yaranmasını təmin edəcək. Bu tranzit xəttinin Azərbaycandan keçməsi ölkəmizin həm region, həm də dünya səviyyəsində geopolitik mövqeyinə çox ciddi bir töhfə olacaq".

Milli Məclis sədrinin müavini diqqətə çatdırıb ki, Zəngəzur dəhlizi icra edildikdən sonra Çindən yola çıxan yükün qısa bir müddət ərzində ölkəmiz vasitəsilə Avropaya çatdırılması təmin ediləcək: "Ulu Öndər Heydər Əliyevin reallaşdırmaq istədiyi və inşasına başlanılan Mehridən keçən Naxçıvan-Bakı avtomobil yolunun tikintisi layihəsi ozamankı Ermənistan rəhbərliyinin etirazlarından sonra dayandırılmışdı. Bu gün isə dövlət başçısı İlham Əliyev bu ideyanı da həyata keçirərək Ulu Öndərin uzun illər əvvəl hazırlamış olduğu strategiyanı çox böyük uğurla davam etdirir. Artıq Ermənistan tərəfi Zəngəzur dəhlizinin icrasına heç bir ciddi maneə yarada bilməz, belə ki, tarixi həqiqət bizim yanımızda olmaqla yanaşı, hüquqi sənədlər də dəhlizin reallaşdırılmasına şərait yaradır. Habelə tranzit olaraq bu dəhlizin təmin edəcəyi logistik imkanlar həm də Ermənistanın xeyrinə olacaq".

# BDU-da "Hüquq elminin müasir problemləri" mövzusunda beynəlxalq elmi konfrans olub

Bakı Dövlət Universiteti (BDU) Hüquq fakültəsinin Dövlət və hüquq nəzəriyyəsi və tarixi və Konstitusiya hüququ kafedralarının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci il dönümünə həsr edilmiş "Hüquq elminin müasir problemləri" mövzusunda onlayn beynəlxalq elmi konfrans keçirilib.

BDU-dan AZƏRTAC-a bildirilib ki, konfransın moderatoru Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, professor Ziyafət Əsgərov mütəmadi keçirilən belə tədbirlərin hüquq elminin inkişafına verdiyi töhfələrdən söz açıb.

Konfransda çıxış edən BDU-nun rektoru Elçin Babayev COVID-19 pandemiyasının təhsilə, eyni zamanda, elmi tədqiqatların aparılmasına təsirindən danışaraq müasir dünyada elm və texnologiya sahəsində baş verən inkişafın yeni təhsil ehtiyacları yaratmaqla yanaşı, müasir təhsil tətbiqlərinə yeni imkanlar açdığına diqqət çəkib. Prezident İlham Əliyevin rəhbərliyi ilə demokratik və hüquqi dövlət quruculuğu istiqamətində görülən işlərdən bəhs edən rektor əlavə edib ki, BDU-nun Hüquq fakültəsi fəaliyyət göstərdiyi müddətdə minlərlə yüksəkixtisaslı hüquqşünas kadr yetişdirərək respublikanın hüquq mühafizə orqanlarını, dövlət və hökumət təşkilatlarını hüquqşünas kadrlarla təmin edib. Hüquq fakültəsi respublikada hüquq elminin inkişafında və hüquq üzrə elmi-pedaqoji kadrların hazırlanmasında əsas aparıcı mərkəzdir.

Hüquq fakültəsinin dekanı, professor Əmir Əliyev son illər fakültədə nəşr olunan nüfuzlu elmi jurnalların sayının artması, o cümlədən elmi tədqiqatlarda əldə edilən uğurlardan bəhs edərək məruzəçilərə və magistrant-tələbələrə konfransın işində aktiv iştiraklarına görə təşəkkür edib.

Konfransda Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının müdiri Məsumə Məlikova, Ankara Universitetinin Hüquq fakültəsinin professoru Erkan Akdoğan, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, O.E.Kutafin adına Moskva Dövlət Hüquq Universitetinin Dövlət və hüquq tarixi kafedrasının müdiri, professor, Əməkdar elm xadimi İqor İsayev, Azərbaycan Respublikası Milli Məclisinin Aparatının rəhbəri Səfa Mirzəyev, Ukrayna Milli Aviasiya Akademiyasının professoru Arif Quliyev, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq ekspertizası şöbəsinin müdiri Şahin Əliyev, Rusiya Federasiyası Prezidenti yanında Rusiya Xalq Təsərrüfatı və Dövlət Qulluğu Akademiyasının Cənub filialının Hüquqi Tədqiqatlar Mərkəzinin direktoru, professor Damir Şapsuqov çıxış ediblər. Çıxışlarda məhkəmə işlərinin elektron idarəedilməsi, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi, dövlətin əsas qanunu kimi konstitusiya anlayışı, Azərbaycan dövlətinin Konstitusiya statusu, məhkəmə hakimiyyətinin müstəqilliyi, hüquq və azadlıqların üstünlüyü prinsipi, insan və vətəndaşın hüquqi statusunun anlayışı və prinsipləri, insan və vətəndaşın əsas hüquq və azadlıqları: sosial-iqtisadi hüquqlar, yerli özünüidarəetmənin təminatlarının hüquqi əsasları, hüququn anlayışı - dövlət və hüququn qarşılıqlı əlaqəsi, hüquq münasibətləri, beynəlxalq iqtisadi hüququn dövlətdaxili hüquq ilə qarşılıqlı əlaqəsi, insan və vətəndaş hüquq və azadlıqlarının həyata keçirilməsinin hüquqi tənzimlənməsi, fərdi məlumatların məxfiliyinin təmin edilməsi, elektron hökumətin hüquqi əsasları kimi mövzulardan bəhs olunub.

# Norveç mediasında işğaldan azad edilən ərazilərimizdə basdırılan minalar barədə məlumatlandırma kampaniyasına start verilir




Bu gündən başlayaraq Norveçin "Utrop" qəzetində yerli ictimaiyyəti Ermənistan işğalından azad olunan ərazilərimizdə basdırılan minalar barəsində məlumatlandırma kampaniyasına start verilir.

AZƏRTAC xəbər verir ki, Norveçdə fəaliyyət göstərən "CAN" təşkilatı tərəfindən keçirilən layihənin əsas məqsədi yerli ictimaiyyəti Qarabağ həqiqətləri barəsində məlumatlandıraraq, müharibə ərzində baş verənlərə və Ermənistanın azərbaycanlılara qarşı törətdiyi hərbi cinayətlərə diqqət çəkməkdən ibarətdir.

Məşhur "Utrop" qəzetində yer alan məlumat bannerləri vasitəsilə oxucular "CAN" təşkilatının saytına keçərək, məsələ ilə bağlı Norveç dilində daha ətraflı məlumat ala bilərlər. Saytda yerləşdirilən bannerdə deyilir: "Birlikdə Azərbaycan ərazilərində humanitar aksiya çərçivəsində minalardan təmizləmə layihəsi keçirə bilərik".

"CAN" təşkilatının sədri Şervin Nəcəfpurun sözlərinə görə, artıq onun rəhbərlik etdiyi təşkilat öz rəsmi saytı vasitəsilə Norveç hökumətinə də müvafiq müraciət edərək, Azərbaycanda ərazilərin minalardan təmizlənməsi fəaliyyətinə dəstək göstərməyə çağırıb. O xatırladıb ki, Norveç 1996-cı ildən başlayaraq beynəlxalq müstəvidə minalardan mübarizə sahəsində vacib rol oynayan ölkələrdən biri sayılır. Norveç tərəfindən habelə 25 ildə 20 ölkəyə minalardan təmizləmə fəaliyyətinə maliyyə dəstəyi olunub. Yalnız 2019-cu ildə Norveç humanitar minatəmizləmə işləri üçün 40 milyon dollar yardım edib.

Bu sahədə fəaliyyət göstərən "Norsk Folkehjelp" qeyri-hökumət təşkilatı dünyada yaxşı tanınır. 1992-ci ildən etibarən müharibə və qarşıdurmalardan sonra minalanan ərazilərin təmizlənməsinə dəstək etdiyini bildirən Şervin Nəcəfpur deyib: "CAN" təşkilatı son aylar "Norsk Folkehjelp" təşkilatına əməkdaşlıq üçün müraciət edib və Qarabağda artıq müharibənin bitdiyini və bu səbəbdən vəziyyətin minalardan təmizlənməyə imkan verdiyini diqqətə çatdırmışıq".

# 10 müəssisə, 45 milyon manat sərmayə, 364 iş yeri



*Əvvəli 1-ci səh.*

Məhəllələrdə sahibkarlara torpaq sahələri də verilir. Sahibkar hüquqi şəxs kimi məhəllənin ərazisindən torpaq sahəsi götürüb öz müəssisəsini inşa edir. Bu zaman isə Vergi Məcəlləsinə uyğun torpaq vergisi ödəyir. İstehsalat sahələrində yer götürən sahibkarlar dövlət tərəfindən tənzimlənən minimum qiymətlər əsasında icarəhaqqı ödəyirlər. Torpağı icarəyə götürənlərin vergisi isə Vergi Məcəlləsinə uyğun tənzimlənir.

## Dəmir yoluna, Ələt Azad İqtisadi Zonasına və Bakı Beynəlxalq Dəniz Ticarəti Limanına yaxınlıq

Hacıqabul Sənaye Məhəlləsində ümumilikdə müxtəlif istehsal sahələri üzrə 10 müəssisə qurulub və sahibkarlar tərəfindən bu layihələrin icrasına 45,44 milyon manat investisiya cəlb olunub. Sənaye məhəlləsində mövcud layihələr üzrə 364 iş yerinin yaradılması nəzərdə tutulub.

Sənaye məhəlləsini seçərkən sahibkarların ən çox diqqət yetirdiyi məsələ məkanın coğrafi və infrastruktur baxımından əlverişli olmasıdır. Bu baxımdan Hacıqabul Sənaye Məhəlləsi çox əlverişli yerdədir.

Məhəllənin mühüm üstünlüyündən biri də odur ki, ərazinin yaxınlığından respublikanın baş magistral dəmir yolu xətti keçir. Həmin xəttdən məhəlləyə 1700 metr uzunluğunda ayrıca dəmir yolu xətti çəkilib, yükləmə-boşaltma məntəqəsi üçün sahə ayrılıb. Yəni, müəssisələrin istehsal etdiyi məhsulun məhəllənin ərazisindən birbaşa istənilən məkana qatarla çatdırılması da mümkündür. Eyni zamanda sahibkar hər hansı yerdən aldığı xammalı da birbaşa qatarla məhəlləyə gətirə biləcəkdir. Bu da sahibkarların əlavə nəqliyyat xərcindən azad olunmaları deməkdir.

Sahibkarların buraya daha çox maraq göstərməsinin digər səbəbi isə məhəllənin həm Bakı Beynəlxalq Dəniz Ticarəti Limanına, həm də Ələt Azad İqtisadi Zonasına yaxın ərazidə yerləşməsidir. Bütün bunlar sahibkarların məhsullarının "Made in Azerbaijan" brendi ilə xarici bazarlara çıxarılmasına böyük töhfə verəcək.

## Azərbaycanda ilk təcrübə

Açılışı zamanı İlham Əliyev rezidentlərin fəaliyyəti ilə də maraqlandı və müəssisələri işə saldı. Onlardan biri də "Azərmaş" zavodudur. Bu zavod 1500 ədəd yük və xüsusi təyinatlı avtomobil istehsal etmək imkanına malikdir. Qiymətlər isə 17 min manatdan 130 min manata qədərdir.

Gələn aydan müəssisə birinci mərhələdən avtomobil istehsalına başlayacaq. Əlavə edək ki, bu zavod gələcəkdə daxili bazarın tələbatını ödəməklə yanaşı, ixrac potensialını artırmağı da hədəfləyir.

Müəssisə Hacıqabul rayonunda 100 nəfərdən çox insanın məşğulluğunu təmin edəcək. Bu zavodda Özbəkistan və Rusiya ilə birgə layihələr icra olunacaq. Beləliklə, bu müəssisənin istifadəyə verilməsi rayonun iqtisadi inkişafı üçün böyük təkan olmaqla yanaşı, ölkəmizdə avtomobil sənayesinin formalaşmasında mühüm rol oynayacaq.

Burada yaradılan müəssisələrdən biri də "Elberg" tikinti materialları üçün avadanlıqların istehsalı zavodudur. Bu müəssisə Azərbaycanda ilk təcrübədir. Burada tikinti materialları - gips, əhəng, kərpic, alçipan və digər inşaat materialları istehsal edən zavodların layihələndirilməsi və quraşdırılması həyata keçiriləcək.

Müəssisə il ərzində iki zavodu "açar-təhvil" prinsipi ilə qurmaq imkanına malikdir. Fəaliyyətə başlaması ilə ölkədə istehsal avadanlıqları və qurğularına olan tələbatı qismən ödəməklə yanaşı, yeni ixrac imkanları da yaranacaq.

Müəssisənin digər rezidenti "Uyusal Ambalaj" plastik su qabları istehsal edəcək. Müəssisədə il ərzində müxtəlif ölçülü 350 min ədəd su qabı istehsal olunacaq. "Plasstech" zavodu isə ildə 600-900 ton yüngül tara istehsal etmək gücündədir. Bu taralardan kənd təsərrüfatı məhsullarının daşınması və qablaşdırılması zamanı istifadə olunur.

Sənaye məhəlləsində istifadəyə verilən müəssisələrdən biri isə gübrə istehsalı ilə məşğul olan "AzAgromila" müəssisəsidir. Müəssisədə ildə 600 min ton gübrə istehsal olunacaq.

## Sahibkarların kooperasiya əlaqələri gücləndirilir

Ümumiyyətlə, Azərbaycanın regional inkişaf strategiyasında sənaye quruculuğu mühüm istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Bölgələrdə formalaşan ənənələr, xammal potensialı və əmək ehtiyatları nəzərə alınmaqla yaradılan bu müəssisələr bir qayda olaraq ən müasir standartlar səviyyəsində qurulur.

Müasir sənaye müəssisələrinin sayı artdıqca ixrac idxalı üstələyir, "Made in Azerbaijan" brendi ilə dünya bazarlarına çıxan məhsullar artır. Hazır məhsul həm daxili tələbatın ödənilməsinə yönəldilir, həm də xaricə çıxarılır.

Hacıqabula səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibə verən İlham Əliyev bir daha bu məsələlərə toxunaraq qeyd edib ki, bu layihə dövlət tərəfindən irəli sürülmüş təşəbbüsdür. Dövlət sahəni müəyyən edir, infrastruktur layihələri icra olunur, bütün kommunikasiya sistemi qurulur, hətta anqarları da dövlət hesabına inşa edilir. Sahibkarlar isə məhəllədə öz sərmayəsini qoyub yüksəkkeyfiyyətli məhsullar istehsal edirlər.

Prezident həmçinin yeni açılışı olan sənaye məhəlləsinin inkişafı ilə bağlı əlavə göstərişlər verib. Burada əlavə beş müəssisə də yaradılacaq.

Beləliklə, modern sənayeləşmə Azərbaycanın iqtisadi qüdrətinin daha da yüksəlməsinə real zəmin yaradır. İlham Əliyevin illər öncə söylədiyi fikir bu gün təsdiqini tapır. Dövlət başçısı deyirdi ki, Azərbaycanın qeyri-neft sənayesinin inkişafı üçün tikilən bütün sənaye park və məhəllələri, zavod və fabriklər bir müddətdən sonra ölkəyə böyük həcmdə valyuta gətirəcək. Artıq bu gün ölkəmizin ixrac-idxal əməliyyatlarında müsbət saldo yaranır. Dünya bazarına "Made in Azerbaijan" brendi ilə çıxan məhsullarımızın həm çeşidi, həcmi artır, həm də çoğrafiyası genişlənir. Bu gün sənaye park və məhəllələrimizdə istehsal olunan məhsullar dünyanın müxtəlif ölkələrinə ixrac edilir.

Bir sözlə, əminliklə deyə bilərik ki, İlham Əliyevin müəllifi olduğu bu layihələr Azərbaycana böyük iqtisadi dividentlər qazandırır. Hacıqabulun Atbulaq kəndinin ərazisində yaradılan Azərbaycanın ən böyük sənaye məhəllləsi isə nəinki bu kəndin, hətta ətraf kəndlərin də əhalisi üçün geniş imkanlar açacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan növbəti milli marağını inamla təmin edir

*Əvvəli 1-ci səh.*

Yəni türk dünyasının vahid bir ailə kimi, vahid bir qüvvə kimi fəaliyyəti onilliklər ərzində dayandırılmışdır. Ancaq biz bu gün qəbul edilmiş qərarlarla, atılmış addımlarla bu bağlantını daha da gücləndiririk". 2019-cu il oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşündə Prezident İlham Əliyev bir daha bu mövzuda danışaraq dedi ki, vaxtilə Zəngəzur bölgəsinin Azərbaycandan alınıb Ermənistana birləşdirilməsi böyük türk dünyasını coğrafi baxımdan parçaladı, ancaq Naxçıvanda qəbul etdiyimiz qərarlarla və birgə işimizlə biz türk dünyasının birliyini daha da gücləndirdik və qardaşlığımızı davam etdiririk.

Vətən müharibəsindəki qələbə ilə İlham Əliyev vaxtilə müəyyən etdiyi bu milli prioritetin inamla və uğurla həyata keçməsini təmin edir. Aprelin 1-də Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçuku qəbul edən Prezident İlham Əliyev üçtərəfli işçi qrupu çərçivəsində işlərin uğurla getdiyini, çox intensiv məsləhətləşmələrin aparıldığını bildirmişdi. İndiyədək həm əyani, həm də videokonfrans rabitəsi rejimində bir neçə görüş keçirilib. Rusiya Baş nazirinin müavini Aleksey Overçuk son açıqlamasında da bildirib ki, Azərbaycan, Rusiya və Ermənistanın baş nazirləri müavinlərinin rəhbərlik etdiyi üçtərəfli işçi qrupunun üzvləri daim əlaqədədirlər.

## Azərbaycan qarşısına qoyduğu məqsədlərə çatan dövlətdir

Ermənistanda aylardır ki, revanşist qüvvələr üçtərəfli bəyanatlara qarşı çıxırlar. Amma qeyd olunduğu kimi, Azərbaycanın qələbəsi Ermənistana başqa yol qoymayıb. Bu ölkə indi Azərbaycanın diktə etdyi şərtlərə uyğun davranmağa məhkumdur. Ermənistan istəsə də, istəməsə də Zəngəzur dəhlizi reallaşacaq. Prezident İlham Əliyev bu barədə deyib: "Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Necə ki, mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq".

Azərbaycan qarşısına qoyduğu məqsədlərə çatan dövlətdir. Prezident İlham Əliyevin siyasi müdrikliyi, uzaqgörənliyi, yürütdüyü diplomatiya respublikamızı uğurdan-uğura aparır. İlham Əliyev həmişə bəyan edirdi ki, Ermənistan ərazilərimizdən öz xoşu ilə çıxmasa, Azərbaycan güc yolu ilə onu işğal etdiyi torpaqlarımızdan çıxaracaq. Bu baxımdan 44 günlük Vətən müharibəsi Azərbaycanın öz məqsədlərinə doğru inamla addımlayan dövlət olduğunu və İlham Əliyevin qətiyyətini, dövlətinin milli maraqlarını uğurla təmin edən lider olduğunu göstərdi. Bu baxımdan İlham Əliyevin yürütdüyü siyasət Ermənistanı üçtərəfli bəyanatlarla üzərinə götürdüyü öhdəlikləri tez bir zamanda yerinə yetirməyə məcbur edəcək. Həmin sənədlərdə nəzərdə tutulmuş nəqliyyat əlaqələrinin yaradılması və bərpası ilə Azərbaycan xalqı Zəngəzura qayıdacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan ictimaiyyəti nümayəndələrinin Rusiyanın ölkəmizdəki səfirliyinə müraciəti

Azərbaycan ictimaiyyətinin nümayəndələri Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı səfirliyinə müraciət ünvanlayıb. AZƏRTAC müraciəti təqdim edir.

"Xanımlar və cənablar.

Hörmətli diplomatlar.

Bəzi mənbələrdən alınan məlumata görə, Qarabağda əvvəllər mövcud olmuş, Ermənistan tərəfindən yaradılmış qanunsuz işğalçı rejimin başçısı Araik Arutyunyan Moskvaya "şəxsi səfər"ə gəlib. Bu məlumatı, o cümlədən Rusiya Ermənilər İttifaqının başçısı Ara Abramyan təsdiq edib.

Bu xəbər Azərbaycan ictimaiyyətində məlum səbəblərdən təəccüb və hiddət doğurub.

Əvvələn, peşəkar diplomatlara yaxşı məlum olmalıdır ki, Arutyunyanın Moskvaya səfəri sırf şəxsi səfər olsa belə, o, sərhəddən keçmək üçün mənşə ölkəsi - Azərbaycan tərəfindən verilmiş valid, yəni, hüquqi qüvvəyə malik olan sənəd təqdim etməlidir. Mənşə ölkəsi Azərbaycan olan Araik Arutyunyanın Rusiyaya səfəri zamanı bu normalara riayət edilibmi?

Həmçinin xatırladırıq ki, 44 günlük müharibə dövründə Araik Arutyunyan Gəncənin yaşayış məhəllələrinin raket atəşinə tutulmasına görə məsuliyyəti açıq-aşkar öz üzərinə götürüb. Bu, müharibə cinayətidir. Hazırda Araik Arutyunyan barəsində Azərbaycanın Baş Prokurorluğu tərəfindən bir sıra, o cümlədən müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərdə ittiham üzrə axtarış elan edilib.

Azərbaycan ilə Rusiya arasında hüquqi yardım haqqında çoxdan sazişlər bağlanıb, bu sazişlər axtarışda olan şəxslərin ekstradisiyasını da nəzərdə tutur. Lakin belə bir fonda Azərbaycan ictimaiyyəti Araik Arutyunyanın Rusiyaya açıq səfərini necə qiymətləndirə bilər?

Araik Arutyunyan Moskvaya Şuşada aşkar edilmiş "İsgəndər-M" operativ taktiki raket komplekslərinin (OTRK) detalları ətrafında anlaşılmaz qeyri-müəyyənlik fonunda yola düşüb. Bir daha təkrar edirik: "İsgəndər-M" başqa ölkələrə ixrac edilməli olmayan OTRK-nın modifikasiyasıdır. Bu gün həmin raketlərin detalları Bakıda Hərbi Qənimətlər Parkında sərgilənib. Həmin detalların üzərində seriya nömrələri tam aydın görünür. Lakin təəssüf ki, biz indiyə qədər Rusiya tərəfinin aydın cavabını eşitməmişik, həmçinin Rusiya KİV-ində Azərbaycanın ünvanına insinuasiyalar kampaniyası genişlənir.

Eyni zamanda, "İsgəndər-M" raketləri barədə bizim suallarımıza cavab alınmayınca Araik Arutyunyanın Moskvaya gəlməsi ilə bağlı vəziyyəti aydınlaşdırmaq zərurəti yaranır. Biz, Azərbaycan ictimaiyyətinin nümayəndələri bunu qeyd etməyə məcburuq: Araik Arutyunyanın Moskvaya budəfəki səfəri Azərbaycan ilə Rusiyanın ikitərəfli münasibətlərinin hərfi mənasına və ruhuna açıq-aşkar ziddir. Bu səfər rusiyalı hərbi qulluqçuların Qarabağda həyata keçirdiyi sülhməramlı missiyaya şübhə oyadır. Bir məqama diqqət yetirmək lazımdır ki, Rusiya təcavüzkar separatizmdən əziyyət çəkmiş ölkə kimi Azərbaycanın ədalətli mövqeyini yaxşı başa düşməlidir.

Ona görə ümidvar olduğumuzu bildiririk ki, Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı səfirliyi bu məsələyə aydınlıq gətirəcək və Azərbaycan ictimaiyyətinin suallarına cavab verəcək.

**Rufiz Qonaqov** - "Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzi" İB-nin rəhbəri
**Mir Şahin Ağayev** - REAL TV-nin rəhbəri
**Zaur Məmmədov** - Bakı Politoloqlar Klubunun rəhbəri
**Əhməd Abbasbəyli** - "Cəmiyyət və Vətəndaş Münasibətlərinin İnkişafı" İB-nin rəhbəri
**Vüqar Xəlilov** - CBC TV-nin rəhbəri
**Rafiq Haşimov** - AZTV-nin sədr müavini
**Orxan Fikrətoğlu** - müstəqil jurnalist
**Anar Şükürov** - ATV-nin Xəbərlər Redaksiyasının rəhbəri
**Əflatun Amaşov** - Mətbuat Şurasının sədri
**Elçin Şıxlı** - "Ayna-Zerkalo" qəzetinin baş redaktoru
**Samir Adıgözəlov** - "İctimai-Siyasi Proseslər və Beynəlxalq Əlaqələr Elmi-Araşdırmalar Mərkəzi" İB-nin rəhbəri
**Rauf Arifoğlu** - "Yeni Müsavat" qəzetinin baş redaktoru
**Nüşabə Məmmədova** - "Beynəlxalq Dialoq və İnkişaf Alyansı" İB-nin rəhbəri
**Rəşad Məcid** - "525-ci qəzet"in baş redaktoru
**Araz Zeynalov** - vesti.az saytının baş redaktoru
**Səadət Bənənyarlı** - "Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsi" İB-nin rəhbəri
**Səltənət Qocamanlı** - "İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi" İB-nin rəhbəri
**Namiq Mailov** - "Region plyus" jurnalının baş redaktoru
**Emil Mustafayev** - Minval.az saytının baş redaktoru
**Elçin Alıoğlu** - Milli.az saytının baş redaktoru
**Bəhram Bağırzadə** - Əməkdar artist, "Parni iz Baku" ŞHK komandasının aktyoru
**Həmid Həmidov** - "Global Media Group"un media direktoru
**Heydər Mirzə** - hərbi jurnalist, analitik
**Məhərrəm Zülfüqarlı** - "İctimai Problemlərin Tədqiqi Assosiasiyası" İB-nin rəhbəri
**Vyaçeslav Sapunov** - jurnalist, bloger
**Bəhram Batıyev** - "Armiya.az" saytının baş redaktoru
**Rizvan Hüseynov** - tarixçi
**Ramil İskəndərli** - "Hüquqi Təhlil və Araşdırmalar" İB-nin rəhbəri
**Şəlalə Həsənova** - "İctimaiyyətlə Əlaqələrin İnkişafına Kömək" İB-nin rəhbəri".




## Erməni terrorizmi beynəlxalq terrorizmin tərkib hissəsidir




# "Erməni soyqırımı" olubmu: *tarix nə deyir?*

**(Əvvəli qəzetin 24 aprel tarixli nömrəsində)**

*Ermənilərin ələ keçirdikləri silahları rus ordusunun alması və işğal edilən ərazilərə ermənilərin yerləşdirilməsinə icazə verməməsi daşnakları qəzəbləndirdi. Onların Rusiyaya münasibəti dəyişdi.*

*Rəsmi sənədlərdə yazılırdı ki, ermənilərin ümidləri özünü doğrultmadı. Daşnaklar bildirdilər ki, Rusiyadan Türkiyə Ermənistanı üçün muxtariyyət gözləməyə dəyməz, ona görə də silahı rus ordusuna vermək olmaz, gələcəkdə Rusiyaya qarşı yönəldilə bilər.*

1915-ci il fevralın 15-19-da Tiflisdə Daşnaksütyunun nümayəndələrinin iştirakı ilə yerli erməni komitələrinin qurultayı keçirildi. Qurultayda 120 nəfər iştirak edirdi. Onlardan 8-i keşiş, 8-i qadın idi. Qurultayın ikinci günü, fevralın 16-da yepiskop Mesrop Qafqaz canişini ilə görüşərək iki şey üçün icazə istədi: erməni drujinalarına kömək; erməni qaçqınlarına yardım. Canişin erməni drujinaları məsələsinin hay-küylə açıq-aşkar edilməsinin arzu edilən olmadığını bildirdi. Qeyd etdi ki, qanun vətəndaşlara toplantı azadlığı verir və siz istədiyiniz yerdə toplaşa bilərsiniz, hakimiyyət belə drujinaların yaradılmasına mane olmayacaqdır. O, qəzetlərdə elan verilməsinin və hay-küylü iclasların keçirilməsinin məqsədəuyğun olmadığını dedi. Bu da səbəbsiz deyildi, Rusiyanın türk, müsəlman əhalisinin hiddətlənəcəyindən çəkinirdi.

Qurultay işini daha sonra məhdud çərçivədə yepiskop Mesropun evində davam etdirdi. Fevralın 17-dən etibarən Rusiyanın və Qafqazın hər yerindən ermənilər Tiflisə axışmağa başladılar. Qurultayda erməni drujinalarının ehtiyacı üçün vəsaitlər toplanması barədə qərar qəbul edildi. Qərarda həmçinin yazılırdı ki, ermənilərin bir qisminin silahlandırılması xüsusi rol oynamayacaqdır, hərbi xidmətləri olacaq böyük drujinalar qurmaq lazımdır. Qurultayda çıxış edən Andranik bildirdi ki, erməni drujinaların sayı az deyildir, lakin onlar daha da artırılmalıdır. Əlavə etdi: *"Əgər erməni məsələsi mənfi həll edilsə, onda vahid erməni drujinası fayda verəcəkdir".* O, Rusiyadan ermənilərə verdiyi vədi yerinə yetirməyi tələb etmək təklifini irəli sürdü.

Andranikdən sonra çıxış edən Rusiya Dövlət Dumasının üzvü M.İ.Papacanov bildirdi: *"Rus hökuməti erməni drujinalarının sayını artırmaq barədə razılıq verib. Ermənilərin Türkiyədən böyük düşməni yoxdur".* Qurultay ermənilərin bir yerə cəmlənməsi və vahid cəbhədə birləşməsi haqqında qərar qəbul etdi. Daşnaksütyun bütün üzvlərinə aşağıdakı məzmunda gizli bir müraciət etdi: *"Hal-hazırda ermənilərin çar hökuməti ilə birliyi müvəqqətidir. Gələcəkdə ermənilərin çıxışları rus ordusuna kömək demək olmayacaqdır. Siyasi çıxışlar olacaqdır. Ona görə də hökumətdən silahlar alınmalı və döyüş bölgələrində ələ keçirilən silahlar təhvil verilməməlidir. Hələ məlum deyildir ki, bu silahlar kimə tuşlanacaqdır".*

Bundan sonra silahlı bandaların hazırlanması işi daha da genişləndirildi. Bandalar yaradılsa da, çox vaxt silah və sursat çatışmırdı. Vorontsov-Daşkov Xarici İşlər Nazirliyinə göndərdiyi 1915-ci il 20/7 fevral tarixli 1185 nömrəli teleqramında erməni banda başçılarından aldığı məlumata əsaslanaraq yazırdı: *"15 min erməni türk yollarına hücum etməyə hazırdır, lakin silahları və patronları yoxdur".* O, ermənilərə silahın Aleksandretə göndərilməsinin və bilavasitə Rusiya tərəfindən verilməsinin mümkün olmadığını nəzərə alaraq, fransız və ingilis gəmilərində fransız və ingilis silahlarını göndərməyi tövsiyə etdi. Vorontsov-Daşkovun teleqramı 1915-ci il 22/9 fevral tarixdə Parisə və Londona göndərildi. Cavabında Parisdəki Rusiya səfiri A.P.İzvolski 1915-ci il 2 mart-17 fevralda bildirdi ki, fransız hökumətinin Zeytun ermənilərinə silah göndərmək imkanı yoxdur, çünki Fransanın özü məhz buna ehtiyac duyur.

1915-ci il martın 6-da verilən məlumata görə, ermənilərin Karsda və Ərdəhanda öldürdükləri müsəlmanların sayı 30 min nəfərə çatırdı. Qaçıb canını qurtarmağa çalışan minlərlə müsəlmanı Qafqazda dağlarda don vurmuşdu. Çar Rusiyasının işğal etdiyi ərazilərdən bütövlükdə 850 min nəfərdən çox müsəlman qaçqına çevrilmişdi.

Ermənilər isə türk və müsəlmanları kütləvi surətdə qıraraq tutmaq istədikləri ərazilərdə Ermənistanın qurulmasına çalışırdılar. Erməni ictimai xadimi A.Çobanyan 1915-ci ilin martında "Reç" qəzetində P.N.Milyukova yazdığı geniş məktubunda qeyd edirdi: *"Erməni məsələsi"ni külli halında Rusiyanın himayəsi altında altı vilayətdən və Kilikiyadan ibarət Ermənistan muxtariyyəti qurmaqla həll etmək üçün ingilis-rus-fransız sazişi bağlamaq lazımdır".* Onun yazdığına görə, bu, guya həm erməni xalqı, həm də Rusiya üçün əlverişili idi. "Erməni məsələsi"ni təkcə siyasi deyil, eyni zamanda heysiyyat məsələsi hesab edən A.Çobanyan Rusiyanın onun həllinə yardım edəcəyinə ümid bəsləyirdi.

Çar Rusiyası ordusunun işğal etdiyi ərazilərdə ermənilərin yerləşdirilməsi məsələsi mübahisələr yaratmışdı. Erməni cəmiyyətləri ilə rus hakimiyyət orqanları arasında bu məsələdə ciddi fikir ayrılığı mövcud idi. Ermənilərin rus ordusunun işğal etdiyi ərazilərdə yerləşmək arzusu rus komandanlığının etirazına səbəb oldu. Komandanlıq bu ərazilərdə ermənilərin əvəzinə rusları və kazakları yerləşdirməyi təklif edirdi.

Qafqaz ordusunun komandanı, general Yudeniç 1915-ci il aprelin 5-də Qafqaz canişininə yazdığı 1482 nömrəli məktubunda vurğulayırdı: *"Ermənilər türklərin və kürdlərin qoyub getdikləri ərazilərə ermənilərin yerləşdirilməsini təklif edirlər. Bu təklif qəbulolunmazdır. Çünki ermənilərin ələ keçirdikləri torpaqları müharibədən sonra geri almaq və bu ərazilərin onlara məxsus olmadığını sübut etmək çətin olacaqdır. Buna misal olaraq 1877-1878-ci illər rus-türk müharibəsindən sonra onların ələ keçirdikləri əraziləri göstərmək olar. Sərhəd torpaqlarında daha çox rus maraqlarına cavab verən üsulların həyata keçirilməsi zəruridir. İşğal edilmiş ərazilərdən türklər və kürdlər çıxarıla bilər, oralara Kuban və Dondan olan adamları, sərhədçi kazakları yerləşdirmək olar. Bu ərazilərə adamların yerləşdirilməsinə müharibə başa çatdıqdan sonra başlamaq olar. Ələşkird və Bəyazid əraziləri Rostov və Dondan gələnlərlə doldurula bilər. Burada fəhlə artelləri yaradıla və onlara silah da verilə bilər".*

Cavabında onunla həmrəy olduğunu bildirən canişin Nikolay Nikolayeviç yazırdı: *"İşğal edilmiş ərazilərə erməniləri buraxmayan rus əsgərlərinə ermənilər atəş açmışlar".*

Erməni bandalarının dinc türk, müsəlman əhalini kütləvi şəkildə qırmasına baxmayaraq, 1915-ci il aprelin 7-də ermənilərin katolikosu V Gevork ermənilərin vəziyyəti barədə İtaliya və ABŞ-a müraciət etdi. Daha sonra xarici işlər naziri S.D.Sazonova və canişin Vorontsov-Daşkova teleqram göndərərək həmin müraciəti müdafiə etməyi xahiş etdi. Qafqaz canişininin köməkçisi Mışlyaevski də 1915-ci il 4 aprel tarixli 386 nömrəli teleqramında xarici işlər naziri S.Sazonova bu barədə məlumat verdi. Nazir 1818 nömrəli teleqramı ilə çar Rusiyasının Romadakı və Vaşinqtondakı səfirlərinə katolikosun müraciətini müdafiə etməyi tapşırdı. Lakin səfirlər pərdə arxasında fəaliyyət göstərməli və müvafiq təlimatlar verməli idilər.

1915-ci il aprelin 15-də ingilis parlamenti açılan gün liberal deputat, Erməni-Britaniya komitəsinin sədri Vilyamın Ermənistanın gələcək taleyi barədə hökumətə verdiyi sorğuda deyilirdi: *"Müharibə başa çatdıqdan sonra Böyük Britaniya hökuməti Kiçik Asiyanın bir hissəsində məskunlaşan erməni xalqına muxtariyyət verilməsi üçün tədbirlərə çalışırmı? Belə vədi rus hökuməti Polşaya vermişdi".* Xarici İşlər Nazirliyinin katibi Noel Rozberi sualın cavabında bildirdi: *"Qoy Erməni-Britaniya komitəsinin hörmətli sədri arxayın olsun. Böyük Britaniya hökuməti Türkiyənin Asiya hissəsində məskunlaşan ermənilərin vəziyyətini izləyir və onların mənafelərini qoruyacaqdır. Lakin indidən gələcəkdə hansısa tədbirin görüləcəyi barədə söyləmək çətindir".*

Bununla bağlı olaraq Ov.Kaçaznuni sonralar yazırdı: *"Biz arzularımızı başqaları ilə bağlayırdıq... Həmişə hansısa məktub (Vorontsov-Daşkovun katolikosa cavab məktubu) göstərilirdi. Bunu biz gələcəkdə öz hüquqlarımızı tələb edən və haqlarımızı qoruyan əsas kimi qəbul edirdik. Bununla belə, bu məktub çox ustalıqla tərtib edilərək ümumi və başdan-başa qeyri-müəyyən mülahizələrdən başqa bir şey deyildi, onları istənilən kimi mənalandırmaq olardı".*

Aprel ayının ortalarında erməni elementi Van və Bitlisdə qiyam qaldıraraq dinc türk və müsəlman əhalini amansızlıqla qətlə yetirdi. Bu vaxta qədər ermənilərə loyal münasibət bəsləyən türk hökuməti tədbirlər görməyə məcbur oldu. "Baku" qəzetinin "A.O" imzalı müxbirinin Vandan verdiyi və 1915-ci il 29 aprel tarixli nömrəsində çap edilmiş məlumatda yazılırdı ki, aprelə qədər ermənilər ilə türklər arasında münasibət loyal idi, lakin sonradan türklər və kürdlər erməniləri ruslarla əlaqəyə girməkdə və xəyanətkarlıqda təqsirləndirdilər.

### Osmanlının təhlükəsizlik tədbirləri, Rusiya, İngiltərə və Fransanın bəyanatı

Bir neçə cəbhədə müharibə aparan Osmanlı dövlətini arxadan vuran erməni elementinin xəyanətkarlığı hökuməti təhlükəsizlik tədbirləri görməyə vadar etdi. 1915-ci il aprelin 24-də erməni komitələrinin fəaliyyəti ləğv edildi. İstanbulda yaşayan 77 min 835 nəfər ermənidən dövlət əleyhinə çıxan 234 nəfəri həbs edildi.

Baş verən hadisələrin diplomatik-siyasi səviyyədə müzakirəsini çar Rusiyası istiqamətləndirdi. S.Sazonov 1915-ci il 25/12 aprel tarixli 1876 nömrəli teleqramında Parisdəki və Londondakı səfirlər İzvolskiyə və Benkendorfa ermənilərin əzişdirilməsində Osmanlı dövlətinin məsuliyyətinə dair bu ölkələrlə birgə bəyanat verməyi, şəxsi məsuliyyəti türk mülki və hərbi şəxslərinin üzərinə qoymağı tövsiyə etdi. Bildirdi ki, əgər ingilis və fransız hökumətləri razı olarsa, bəyanatın mətnini eyni gündə üç ölkədə çap etmək məqsədəuyğundur. İzvolski Fransanın xarici işlər naziri Teofil Delkasse ilə görüşdü. Nazir çar hökumətinin təklifini bəyəndi. İzvolski 1915-ci il 14 aprel tarixli 243 nömrəli teleqramında görüşün nəticələri barədə yazırdı: *"Teofil Delkasse bu təklifi bəyəndi, bəyanatın mətnini hazırlamaq üçün London ilə əlaqə quracağına söz verdi".*

Londondakı səfir Benkendorf 17 aprel tarixində İngiltərənin xarici işlər naziri Edvard Qrey ilə görüşdü. Xarici işlər naziri ermənilərin katolikosunun İtaliya və ABŞ hökumətlərinə müraciətinin cavabını gözləməyi tövsiyə etdi.

Çar hökuməti belə bir bəyanatın İngiltərə və Fransa tərəfindən hazırlanmasını arzuolunan hesab etmirdi. Çünki bu zaman ermənilər üzərində həmin ölkələrin təsiri arta bilərdi. Ona görə də hazırlanan bəyanatın layihəsini S.Sazonov 1915-ci il 10 may-27 aprel tarixli 2155 nömrəli teleqramı ilə İzvolskiyə və Benkerdorfa göndərdi. Bəyanatda yazılırdı: *"Təxminən bir ay müddətində kürd və türk əhalisi Türkiyə hakimiyyətinin köməyi ilə erməniləri qırır. Xristianlığa və sivilizasiyaya qarşı bu yeni cinayətlər üçün məsuliyyət türk hökumətinin üzərinə düşür".*

S.Sazonov səfirlərə göndərdiyi 2156 nömrəli teleqramında yazırdı ki, bu mətn razılaşdırılarsa, eyni gündə Paris, London və Petroqradda çap edilər. Lakin xarici işlər naziri T.Delkasse Fransanın himayəsində olan müsəlmanların hisslərini təhqir etməkdən çəkinərək "xristianlığa və sivilizasiyaya qarşı" ifadələrini "bəşəriyyətə və sivilizasiyaya" qarşı kimi yazılmasını təklif etdi.

Rusiyanın Londondakı səfiri Benkendorf Xarici İşlər Nazirliyində bu məsələ ilə bağlı müzakirə apardı. İngilis diplomatları baş verən hadisələr barədə məlumatları olmadıqlarını bildirdilər. Benkendorf 12 may-29 aprel tarixli 333 nömrəli teleqramında S.Sazonova yazırdı: *"Nikolsonun mövqeyinə görə, hadisələr barədə ingilis hökumətinin məlumatı yoxdur. Əgər fransız məlumatı təsdiq olunarsa, Türkiyə bu hadisələrdə sübut tapacaqdır ki, ermənilər açıq üsyana qalxıblar".* Benkendorf cavabında Nikolsona belə söyləmişdi: *"... görünür, qanlı təxribatdan başqa onların bir çıxış yolu qalmayıb və iş türklər haqqında getdiyindən belə dəlillər, fikrimizcə, hər cür əhəmiyyətini itirir. Belə bir bəyanatın verilməsi ermənilərin ruhunu yüksəldəcək və gələcəkdə lazım olacaqdır".* Yalnız bundan sonra Nikolson öz mövqeyində israr etməmişdi.

S.Sazonov 1915-ci il 2 may tarixli 2247 nömrəli teleqramında Benkendorfa aşağıdakıları bildirdi: *"Sizin Nikolsona cavabınızı tamamilə bəyənirəm. Şübhə yoxdur ki, ermənilərin Vandakı üsyanına səbəb qırğın olub, əksinə, ona görə yox ki, bizim ordular gələnədək ermənilərin qüvvəcə üstün olan kürdlərə və türklərə qarşı hərəkəti başlamalarının mənası yox idi. Portoya (Osmanlı hökuməti-M.Q.) qarşı birgə bəyanatın eyni vaxtda elan edilməsini və istəyinizi, hətta əgər ona lazımi təsir etməsə də, akkreditə olunduğunuz hökumətə göstərməyinizi xahiş edirik ki, hər halda ermənilərin ruhunu yüksəldəcəkdir, bu, türklərə qarşı mübarizədə bizə sərfəli olacaqdır".*

S.Sazonov Parisdəki səfir İzvolskiyə göndərdiyi 1915-ci il 20/7 may tarixli 2324 nömrəli teleqramında xarici işlər naziri Edvard Qreyin Türkiyədəki ermənilərin qırılmasına dair Portoya edilən müraciətin mətnini bəyəndiyini bildirdi. Londondakı səfir Benkendorf xarici işlər naziri Qreyin Vanda baş verən hadisələrə və bəyanata münasibətini S.Sazonova 1915-ci il 7 may tarixli 352 nömrəli teleqramında açıqladı. O, Qreyə bildirmişdi ki, Vandakı üsyan faktı təsəvvür kimi deyil, şübhəsiz, qırğınlarla müşahidə olunub. Benkendorfun yazdığına görə, bundan sonra Qrey etiraz etməmişdi. Qrey türk hökumətinə üç dövlətin birgə müraciət etməsinin əleyhinə çıxaraq "Rusiyanın tək çıxış etməsi kifayət etməzmi" sualını verdikdə Benkendorf bu məsələnin Rusiya üçün həmişə açıq qalacağını, gələcəkdə həmin təklifin mümkün olacağını, lakin indiki halda üç dövlətin açıq şəkildə türklərin hərəkətlərini pisləməsinin ermənilər üçün mənəvi cəhətdən əhəmiyyətsiz olmayacağını söyləmişdi.

Beləliklə, ermənilərin vəziyyəti haqqında bəyanat üç ölkənin paytaxtında verildi. Siyasi məqsədlər üçün verilmiş bəyanat Osmanlıda hiddət doğurdu.

### Osmanlının yeni təhlükəsizlik tədbirləri

Osmanlı dövləti bu haqsızlıqla barışmadı və yeni təhlükəsizlik tədbirləri gördü. 1915-ci il mayın 27-də Van, Bitlis və Ərzurum vilayətlərində dövlət əleyhinə olan şəxslərin yaşayış yerlərinin dəyişdirilməsi haqqında qərar verdi. Bu qərar etnik mənsubiyyəti nəzərdə tutmurdu, dövlət əleyhinə çıxan bütün şəxslərə aid idi. Dövlətə qarşı qiyam qaldıran və dinc əhalini qıran elementlərin ölkənin təhlükəsiz və xarici müdaxilədən uzaq olan Mesopotamiya və Suriyaya yerləşdirilməsinə başlanıldı. Yaşayış yerləri dəyişdirilən şəxslərin mal və can təhlükəsizliyini təmin etmək üçün jandarm qüvvələri və həkimlər ayrıldı. Müşayiət edən jandarm qüvvələrinə erməniləri köçərilərin hücumlarından, kürdlərin və digər müsəlmanların qisas almalarından qorumaq haqqında göstəriş verildi. Hökumətin qurduğu komissiya onların əmlakının siyahısını çıxarıb auksionda ədalətli qiymətə satmalı idi. Ermənilərin evlərinə köçən müsəlmanlar kirayənişin olaraq banka pul vəsaiti ödəməli, evin sahibi geri döndükdə isə boşaldıb təhvil verməli idi. Dövlət əleyhinə fəaliyyətləri olmayan ermənilər isə daimi yaşayış yerlərində qalmaqda davam etdilər.

Bu proses erməni mətbuatında və Avropa dairələrində böyük əks-sədaya səbəb oldu. Onlar ermənilərin guya qırılması barədə hay-küy qaldırdılar.

Dövlətin əleyhinə qiyam qaldıranların yaşayış yerlərinin dəyişdirilməsi haqqında əmr verildikdən bir gün sonra erməni dəstələri Van şəhərinə girərək yenidən yerli müsəlman əhaliyə qarşı kütləvi qırğınlar törətdilər. Van gölü yaxınlığındakı kəndləri tamamilə dağıtdılar, 200 nəfər türk və kürdü amansızlıqla öldürdülər. Kürdlərdən heç kimə - uşağa, qocaya və qadına rəhm etmədilər. Erməni banda başçıları deyirdilər: *"Kürdlərin ermənlərə vurduğu yaralar təsvir edilməlidir. Kürdlərin kiçik uşaqlara, kişilərə və qadınlara vurduğu yaraları tibb lüğəti ifadə etməkdə acizdir".*

Bu qətliamdan sonra Vanda yalnız 1500 türk qaldı.

Müharibə aparan Osmanlı dövlətini arxadan vuran elementlərə qarşı türk hökumətinin aldığı təhlükəsizlik tədbirləri ermənilər tərəfindən böyük fəlakət kimi təbliğ edilməyə başlandı.

### Osmanlının cavab notası

Çar Rusiyasının və digər xarici ölkələrin mətbuatında dərc edilən və "ermənilərin təqib edilməsi və edamı" üçün məsuliyyəti türk hökumətinin üzvlərinin üzərinə qoyan yuxarıda qeyd edilən bəyanat və yazılarla bağlı olaraq Osmanlı dövləti 1915-ci ilin iyun ayında nota verdi. Osmanlı dövlətinin bitərəf ölkələrdəki nümayəndələrinə göndərilən notada Rusiya, Böyük Britaniya və Fransa hökumətlərinin ittihamları, yaranmış vəziyyət geniş inqilabi hərəkat ilə əlaqələndirilirdi. Yazılırdı ki, inqilabi hərəkatın ilhamvericisi Türkiyənin xristian əhalisi, xüsusən ermənilərdir, Ərzurum, Dersim, Tercan, Egin, Sasun, Bitlis, Muş və Kilikiya ermənilərinin türk hökumətinə şikayət etmək üçün heç bir əsası yoxdur, çünki onlar ictimai qaydaya qarşı çıxmağa qadir deyillər və bunu bitərəf dövlətlərin konsulları yaxşı bilirlər. Notada daha sonra qeyd edilirdi ki, müharibənin başlanğıcından Bolqarıstan və Rumıniyada olan rus və ingilis konsulları və agentləri Varna, Sulin və Konstansadan Qafqaza çoxsaylı gənc erməni qrupları göndərdilər, onların qarşısına Türkiyə Ermənistanına keçmək, orada işlərə qarışmaq, Türkiyənin ermənilər yaşayan daxili vilayətlərində qiyam qaldırmaq vəzifəsi tapşırıldı. Bu məqsədlə Türkiyəyə göndərilən ermənilər çoxlu sayda silah, bomba, təşviqat materialı və inqilabi proqramlarla təmin edildilər. Onların bilavasitə vəzifəsi göstərilən vilayətlərdə inqilabi təşkilatlar qurmaq, lazımi anda əsasən Van, Şatak, Anassulya, Nedı və Kəmər əhalisini qiyama qaldırmaq və türk əhalisini qırmaq idi. Notada konkret misallar gətirilərək yazılırdı ki, Rusiya ilə Türkiyə arasında müharibə başlayan kimi keçmiş deputat Karegin Bastarmacyan bandalara qoşuldu. Onları Rusiya silahlandırmışdı. Bəyazid rus ordusu tərəfindən işğal edildikdə Bactarmacyan bütün türk kəndlərini dağıtdı və çoxlu türkü edam etdi. Daha sonra qeyd edilirdi ki, bütün bunlar Türkiyədəki separatçı hərəkatın əvvəlcə gizli olan, ingilislər İskəndərunun sahillərinə erməni dəstələrini çıxardıqda isə açıq forma alan tərəfi idi. İngilis-fransız komandanlığı Adana, Yumurtalıq və İskəndərun erməniləri ilə əlaqə quraraq onları qiyamlara təşviq etdilər. 1915-ci ilin fevral ayından başlayaraq Zeytunda ermənilərin qiyamları durmadı. Belə bir şəraitdə hökumət ictimai qaydanı bərpa etmək üçün tədbirlər görməyə məcbur oldu. İnqilabi komitənin üzvləri həbs edildi. Ermənilərin axtarışı zamanı inqilabçıların rəhbərlərinin separatçı niyyətlərini üzə çıxaran minlərlə tüfəng və rus bombaları aşkar edildi. Notada yazılırdı ki, sənədlər sübut edir ki, erməni inqilabi komitələri Paris, London və Tiflisdə toplantılarını keçirirlər, rus, fransız və ingilis hökumətlərindən müntəzəm olaraq dəstək alırlar. Həyata keçirilən tədbirlər nəticəsində inqilabın yatırıldığı notada qeyd edilərək yazılırdı ki, İstanbulda yaşayan 77 min 835 nəfər ermənidən 234 nəfəri həbs edilib. Əgər bəzi ermənilərin yaşayış yerləri dəyişdirilibsə, bu da yalnız ona görə edilib ki, onlar hərbi əməliyyatlar aparılan rayonlarda yaşayırlar və onların buralarda olması vətənin sərbəst müdafiəsini etibarlı etmir. Notada Antanta ölkələrində müsəlmanlar əleyhinə qəddarlıqların həyata keçirildiyi də vurğulanırdı.

Türk hökumətinin notası xarici dövlətlərin baş verən qiyamlarda əli olduğunu sübut edir, eyni zamanda Osmanlıdakı erməni elementinin Antanta dövlətlərinin əlində bir alətə çevrildiyini göstərirdi.

### Erməni iddialarının əsası varmı və ya ölülər artıb törəyə bilərmi?

Ermənilərin Osmanlı dövlətinin təhlükəsizlik tədbirlərini "böyük fəlakət", "soyqırımı" kimi qələmə verməIəri tarixi gerçəkliklərə uyğundurmu? "Erməni soyqırımı"ndan söhbət gedəndə ilk öncə bu suala cavab vermək lazımdır: birinci kim başladı? Birinci ermənilər başladı. Türklər ölüm-dirim savaşında ikən rus, ingilis və fransızlara kömək edən, dinc əhaliyə divan tutan silahlı ermənilərə yalnız cavab verdilər.

Ölən ermənilərin sayını erməni təbliğatı müxtəlif rəqəmlərlə şişirdir. Əvvəlcə 600 min, sonralar isə artırılaraq 800 min, daha sonra isə 1,5 milyon nəfər göstərilib. Böyük Britaniya mətbuatının 1918-ci ildəki məlumatında ölən ermənilərin sayı 600 min, 1968-ci ildəki məlumatında isə birdən-birə 1,5 milyon nəfər yazılır.

Bəs gerçəkdən hərbi əməliyyatlar zamanı nə qədər erməni ölüb? Bunu qəti olaraq dəqiq rəqəmlə sübut etmək mümkünsüzdür. Çünki söylənilən hər bir rəqəm haqqında mübahisə etmək olar. Əsas mənbə həmin illərdə Osmanlı imperatorluğunda yaşayan ermənilərin sayı haqqında məlumatdır. Erməni kilsəsinin rəqəmlərini əsas götürən erməniəsilli Marçel Learta *(La question Armenienne a la Luımire des documents. Paris, 1913)* görə 2.560.000, erməni tarixçisi Basmacıyana görə 2.380.000, 1922-ci il noyabrın 20-dən 1923-cü il iyulun 24-dək keçirilmiş Lozanna konfransında iştirak edən erməni nümayəndə heyətinin məlumatına görə 2.250.000, erməni tarixçisi Gevork Aslana görə 1.800.000, fransız Sarı kitabına görə 1.555.000, Lüdovik de Constonsona görə 1.400.000, "Paris Revyü"yə görə 1.300.000, Osmanlı statistikasına görə 1.295.000, ingilis illik statistikasına görə 1.056.000 erməni bu illərdə Osmanlı imperatorluğunda yaşayıb.

Soruşulur: Osmanlı ərazisində 1 milyon 500 min erməni yaşamadığı halda bu qədər ermənini necə öldürmək olardı? Ermənilərin ölənləri də artıb törəyirlərmi? Dünya müharibəsi illərində öldürülən 10 mlyon nəfərin 1 milyon 500 min nəfəri doğrudanmı erməni olub? Bəs digər millətlərdən ölənlər haradadır? Osmanlının müharibədə itirdiyi 2 milyon nəfər əhalinin 1 milyon 500 min nəfərinin erməni olması həqiqətə nə qədər uyğundur? Bu qədər insanı öldürmək üçün nə qədər hərbçi lazımdır? Və bu qədər ölünün toplu məzarlığı, qəbiristanlığı olmalıdır. Belə məzarlıq nə üçün yoxdur?

Əslində hərbi əməliyyatların gedişində Osmanlıda nə qədər erməni ölüb? Tərəqqi və İttihad Partiyasının son qurultayında Tələt Paşa müharibə illərində hərbi əməliyyatların gedişində ermənilərin 300.000 nəfər itirdiklərini təxmin edirdi. Müharibənin sonunda ingilis komandanlığının sənədlərində bəzi türk generalları 300 min ermənininin ölməsində təqsirləndirilirdilər. Fransız din adamı Monseikneur Tauchet 1916-cı ildəki çıxışında 500.000 erməni öldüyünü bildirirdi. İngilis Toynbi bu rəqəmi 600.000 göstərirdi. Ermənilər bu rəqəmi ingilislərdən götürmüşdülər. Lozanna konfransında erməni nümayəndə heyətinin başçısı Poqos Nübar Paşa Türkiyədən 700.000 ermənininin başqa ölkələrə köçdüyünü, 280.000 ermənininin isə Türkiyədə yaşadığını bildirirdi. O deyirdi ki, Şərqi Anadoluda müsəlman əhalisi 1.400.000 nəfərdir. Onda belə nəticəyə gəlmək olur ki, ermənilərin öldürdükləri müsəlmanların sayı ölən ermənilərdən daha çoxdur.

Erməni yazıçısı Arşak Çobanyan 1915-ci ildə "Mşak" qəzetinə Parisdən göndərdiyi "Həqiqət" adlı məqaləsində yazırdı: *"Katolikos İstanbuldakı patriarxdan yazılı bir hesabat alıb. Burada Türkiyə Ermənistanında öldürülən ermənilərin sayının 850 min nəfər olduğu deyilir. Lakin mövcud şəraitdə İstanbuldan erməni patriarxının hesabat göndərməsi az inandırıcıdır. Görünür, bu hesabat Bolqarıstan ermənilərinin heç bir mənbəyə istinad edilmədən hazırladıqları məruzədir. Onlar bu məruzəni bütün dünya erməni mərkəzlərinə və kilsə xadimlərinə göndəriblər. Bu rəqəmə ölənlər, əsir düşənlər, hərəm kimi götürülənlər, islamı qəbul edərək xilas olanlar, Mesopotamiyaya göndərilənlər daxildir. Hesabat çox şişirdilib. Hesabatda fəlakətə daha çox yer verilib. Hesabat həddindən artıq tündləşdirilmiş rənglərlə yazılıb; fəlakət artıq böyük və dəhşətlidir, ona görə də onun şişirdilmiş formada təqdim edilməsi xeyli ziyanlıdır...Lakin biz bizim üçün o dəhşətli və öldürücü bir fikrə aludə olmamalıyıq ki, Türkiyədə bütün ermənilik məhv edilib və bizim üçün hər şey birdəfəlik məhv olub. Bunlar həqiqət deyildir. Bizə uzaqdan verilən bütün məlumatlar şişirdilib. Bütün belə böhranlarda şişirdilmə qaçılmazdır... Lakin doğru deyildir ki, Türkiyədə ermənilik məhv edilib və buna görə də biz onu baş vermiş fakt kimi qəbul edib digər millətlər arasında yaymamalıyıq".*

Roma papasının və ABŞ Prezidenti Vudro Vilsonun bu məsələyə qarışmasının faydasız olmayacağına ümid edən A.Çobanyan yazırdı: *"...görkəmli amerikan xadimlərindən ibarət olan "Erməni fəlakətləri"ni araşdıran amerikan komissiyası" yazılı və şifahi mənbələrə, yerlilərin və xaricilərin məlumatlarına əsasən hesabat hazırlayaraq göstərdi ki, 850.000 nəfər ermənininin öldürülməsi səhvdir. Bu rəqəm əvəzinə biz yalnız 500.000 tapırıq. Bu rəqəm həqiqətə uyğun gəlir. Erməni yazıçısı Şirvanzadənin dediyi kimi, həqiqəti söyləməkdən qorxmaq lazım deyildir".*

Daha sonra A.Çobanyan qeyd edirdi: *"Məsuliyyəti yalnız Milli Büronun üzərinə qoymaq və təsdiq etmək olmaz ki, məhz onun siyasəti bədbəxtliyin səbəbidir...Əgər belə bir fikirlə razılaşsaq, məhz Türkiyədən kənarda yaşayan ermənilərin müttəfiqlərə rəğbəti və nifrəti, xüsusən onların rus ordusundakı könüllü dəstələrdə iştirakı türkləri ermənilərə qarşı hiddətləndirdi və onların təqib edilməsinə gətirdi, məgər buna görə yalnız Milli Büronu təqsirləndirmək doğrudurmu? Məgər xaricdəki bütün ermənilik Qafqazdakı ermənilik kimi bu siyasətlə həmrəy deyildimi; məgər katolikosun özü bizim könüllülərə xeyir-dua vermədimi və məgər Erməni Milli Bürosunun Avropadakı missiyasının sədri Poqos Nübar Paşa xalqa çağırışla müraciət etmədimi, hansı ki bütün qəzetlər dərc etdilər və o, könüllü hərəkatı bəyənmədimi? Və yalnız rus ordusundakı könüllü ermənilər "muxtariyyət istəyirik" deyə bilərdilər, hansı ki biz onu vermişik. Tələt bəy Amerika səfirinə demişdi: "Ermənilərə elə bir sıyıq hazırlayacağam ki, onlar ən azı 50 il "muxtariyyət" ifadəsini işlətmək imkanından məhrum olacaqlar... Xeyr. Bədbəxtlik üçün başlıca məsuliyyət bizim qəddar, bədbəxt taleyimizin üzərinə düşür. Hər şey bizim əleyhimizə yönəldi: bizim üçün xeyli əlverişli olan hadisələr gözlənilmədən əlverişsiz xarakter aldı".*

"Baku" qəzetinin sonralar, 4 sentyabr 1915-ci il tarixli 197 nömrəli sayında dərc edilmiş "Ermənistanın göz yaşları" adlı məqalədə yazılırdı: *"Türkiyədəki bütün ermənilər 1.200.000 nəfərdir. Onlardan da 200.000 nəfəri Qafqaza gəlib".*

**(ardı var)**

**Musa QASIMLI,**
**Milli Məclisin deputatı,**
**AMEA-nın müxbir üzvü, professor**


*Erməni silahlı terror dəstəsi (1915)*


*Andranik banda üzvləri ilə*


*Erməni bandalarının Vana hücumu*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Naxçıvan MR-də sahibkarlıq subyektləri dövlət dəstəyi ilə əhatə olunublar

“Naxçıvan Muxtar Respublikasında əldə edilmiş iqtisadi nailiyyətlərin təməlində həm də dövlət-sahibkar münasibətlərinin düzgün istiqamətdə qurulması dayanır”. AZƏRTAC xəbər verir ki, bu fikirlər Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Biznes Mərkəzində 25 Aprel - Sahibkarlar Günü və “Pandemiyadan zərərçəkmiş sahibkarlıq subyektlərinin faiz borclarının subsidiyalaşdırılması” mövzularında keçirilən tədbirdə vurğulanıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının, “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin nümayəndələri və muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektləri iştirak ediblər.

İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı şöbəsinin müdiri Xudakərim Məmmədov muxtar respublikada sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən sistemli tədbirlər nəticəsində geniş sahibkarlar sinfinin formalaşdığını və bu təbəqənin sosial-iqtisadi inkişafın aparıcı qüvvəsinə çevrildiyini vurğulayıb. Qeyd edilib ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamına uyğun olaraq hər il keçirilən Sahibkarlar Günü də sahibkarlara göstərilən qayğının bariz nümunəsidir.

Bildirilib ki, İqtisadiyyat Nazirliyi tərəfindən pandemiyadan zərərçəkmiş sahələrdə əmək müqaviləsi əsasında çalışan muzdlu işçilərin, eləcə də maliyyə dəstəyi alacaq fərdi sahibkarların siyahısı Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fonduna təqdim edilib. Artıq bu istiqamətdə 4 sahibkarlıq subyektinə subsidiya ayrılıb, digər sahibkarlıq subyektlərinin bank hesablarına mərhələli şəkildə vəsait köçürülüb. Sahibkarlara yenidən maliyyə dəstəyinin göstərilməsi barədə qərar pandemiyadan zərərçəkmiş sahibkarlıq subyektlərinin maliyyə vəziyyətinin yaxşılaşdırılmasına, iş yerlərinin qorunub saxlanılmasına xidmət edir.

Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sektor müdiri Azər Cəfərov bildirib ki, mövcud şəraitdə iş adamlarını maraqlandıran əsas məsələlərdən biri bazar fürsətlərinin öyrənilib qiymətləndirilməsidir. Buna konfederasiya tərəfindən bir sıra köməklik göstərilir. Pandemiya dövründə də sahibkarların hüquqlarını qoruyan, dövlət orqanları və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edən konfederasiya yaradılan şəraitdən maksimum istifadə olunmasına köməklik edir.

“Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədr müavini İsa İsayev çıxışında pandemiyanın ölkə iqtisadiyyatına ziyanlı təsirlərinin minimallaşdırılması məqsədilə həyata keçirilən dövlət dəstəyi tədbirlərində “Naxçıvanbank” ASC-nin də yaxından iştirak etdiyini deyib. O, 2020-ci ilin dünya səviyyəsində pandemiya və onunla mübarizə ilə yadda qaldığını və ötən il ərzində davamlı şəkildə dəstək tədbirlərinin həyata keçirildiyini, tədbirlərin icrası çərçivəsində bank təşəbbüsü ilə sahibkarların mövcud şəraitdə dəstəklənməsi istiqamətində bir sıra işlərin görüldüyünü vurğulayıb.

Tədbirin sonunda mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb, sahibkarların sualları cavablandırılıb.

## Turistlər Azərbaycanın nadir palçıq vulkanlarını da görə biləcəklər



### Prezidentin yeni turizm kompleksinin təməlini qoyması postpandemiya dövrünə hazırlığın daha bir nümunəsidir

Əvvəli 1-ci səh.

Bir sözlə, Prezident İlham Əliyevin düzgün və uzaqgörən siyasəti nəticəsində Azərbaycan iqtisadiyyatının bütün sahələrində, o cümlədən turizm sektorunda postpandemiya dövrünə ciddi hazırlıq görülür. Dünyanın turizm coğrafiyasında ölkəmizin əvvəlkindən də maraqlı destinasiya kimi cəlbedici olacağını söyləməyə əsas verən də məhz bu amildir.

Bu il aprelin 22-də Prezident İlham Əliyevin Abşeron rayonunun Qobustan kəndinin ərazisində Palçıq Vulkanları Turizm Kompleksinin təməlini qoyması deyilənlərin əyani təsdiqidir. Beləliklə, “Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” çərçivəsində növbəti turizm infrastrukturunun yaradılması layihəsi icra olunur.

Bu kompleksin turistlərin böyük marağına səbəb olacağına şübhə yoxdur. Çünki dünyada palçıq vulkanları ilə tanınan regionlar o qədər də çox deyil. Yer kürəsində cəmi 1700-dək palçıq vulkanı var ki, onlardan da 700-ü ölkəmizdə - əsasən Abşeron yarımadası, Şamaxı-Qobustan, Cənub-Şərqi Şirvan və Bakı arxipelaqında yerləşir. Bunların 350-si, yəni tən yarısı aktiv vulkanlardır.

Xatırladaq ki, Palçıq Vulkanları Turizm Kompleksi Bakıdan 59 kilometr cənub-qərbdə, Qobustan qəsəbəsindən təxminən 17 kilometr şimal-qərbdə, Şamaxı istiqamətinə gedən əsas yolun üstündə, dəniz səviyyəsindən 235 metr hündürlükdə yerləşən ərazidə yaradılacaq. Bura “Qılınc” palçıq vulkanlarının ərazisi kimi tanınır. Ərazinin turizm imkanları qiymətləndirildikdən sonra burada sözügedən kompleksin yaradılması qərara alınıb.

Təməlqoyma zamanı Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya verilən məlumatdan da görünür ki, kompleks zəngin və maraqlı infrastruktura malik olacaq. Burada turistlərin rahatlığı üçün lazımi şərait yaradılacaq.

Qeyd edək ki, “Qılınc” palçıq vulkanlarının yerləşdiyi ərazidə turizm kompleksinin yaradılmasının bir sıra üstünlüyü var. Əvvəla, buradan dünyanın ən böyük vulkanlarından olan “Torağay”a və digər vulkanlara mənzərə açılır. Eləcə də yaxınlıqda turistlərə gəzinti üçün əlverişli şərait yaradan üç müxtəlif vulkan qrupu mövcuddur. Nəhayət, Qobustan qoruğunun qonşuluqda yerləşməsi turistlər üçün buranın önəmini daha da artırır.

Bunlardan əlavə, 12 hektar sahəni əhatə edən kompleksdə kvadrotsikl ərazisi, piyada yürüş yolları, zipline və baxış qülləsi, avtodayanacaq, suvenir dükanı, eləcə də müalicəvi vannaların olması nəzərdə tutulur.

Əlbəttə, əraziyə gedən yolların rahat olmasının da böyük əhəmiyyəti var. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən hələ aprelin əvvəlində bildirilib ki, Abşeron rayonunda yerləşən palçıq vulkanlarının ərazisində müasir turizm infrastrukturuna gedən avtomobil yolunun tikintisi işləri icra olunur.

Layihə çərçivəsində 3-cü texniki dərəcəyə uyğun inşa edilən, ümumi uzunluğu 21 kilometr olan yeni yolun torpaq yatağının eni 12 metr, asfalt-beton örtüyünün eni isə 8 metr təşkil edəcək. Görülən işlər çərçivəsində artıq yolun 15 kilometrlik hissəsində torpaq yatağı və yol əsası inşa edilərək asfalt-beton örtüyünün döşənməsi üçün hazır vəziyyətə gətirilib.

Başlanğıcını Bakı-Ələt-Qazax-Gürcüstan dövlət sərhədi avtomobil yolunun Qobustan qəsəbəsi ərazisindən götürən yeni yolun digər hissəsində isə hazırda torpaq yatağı və yol əsasının inşası işləri davam etdirilir.

Salınacaq turizm kompleksinə gediş-gəlişi asanlaşdırmaq məqsədilə çəkilən yol tərtib olunmuş qrafiklə və yüksək keyfiyyətlə inşa olunur. Bunun üçün əraziyə lazımi sayda canlı qüvvə və texnika cəlb edilib.

Yeni kompleksin yaradılması bir daha göstərir ki, torpağımızın turizm potensialı yüksəkdir. Burada mövcud olan imkanlar həm daxili, həm də beynəlxalq turizmin inkişafı üçün geniş perspektivlər açır. Dövlətimiz təbiətin bəxş etdiyi bu imkanlardan səmərəli şəkildə bəhrələnərək turizmin davamlı inkişafı üçün geniş tədbirlər həyata keçirir. Deməli, postpandemiya dövründə turistlər Azərbaycana daha böyük maraq göstərəcəklər.

***Flora SADIQLI,, “Azərbaycan”***

## Neft bahalaşır

Dünya birjalarında neft qiymətləri bahalaşıb. Bu barədə xarici mənbələrə istinadən AZƏRTAC xəbər verir.

Xəbərdə bildirilir ki, Londonun ICE (“InterContinental Exchange Futures”) birjasında “Brent” markalı neftin bir barelinin qiyməti 0,71 dollar artaraq 66,11 dollar, Nyu Yorkun NYMEX (“New York Mercantile Exchange”) birjasında “Light” markalı neftin bir barelinin qiyməti isə 0,72 dollar bahalaşaraq 62,14 dollar olub.

## Türkiyədən Qırğızıstana göndərilən tibbi texnika Bakı limanına çatıb

İslam Əməkdaşlıq Təşkilatı tərəfindən yardım məqsədilə Türkiyədən Qırğızıstana göndərilən tibbi texnika hazırda Bakı limanı ərazisindədir.

“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-dən AZƏRTAC-a bildirilib ki, sayı 10 ədəd olan bu nəqliyyat vasitələri bərələrə yüklənərək Qazaxıstana göndərilir və ordan da Qırğzıstana çatdırılacaq.

## 64 min hektara yaxın sahəyə çiyid səpilib

### Səpin davam edir

Azərbaycanda yazlıq əkinlər davam edir. Aprelin 23-dək pambıq əkini ilə bağlı 63684 hektar sahədə çiyid səpilib. Artıq sahələrin 4157 hektarında çıxış alınıb. Çiyid səpininin optimal müddətdə başa çatacağı gözlənilir.



Kənd Təsərrüfatı Nazirliyinin yaydığı məlumata görə, bu il Azərbaycanın 17 rayonunda 100 min hektara yaxın sahədə pambıq əkini proqnozlaşdırılır. Ölkədə pambıqçılığa geniş dövlət dəstəyi mövcuddur. Pambıqçı fermerlər həm əkin, həm məhsul subsidiyası alırlar. Fermerlərə pambıq sahəsinin hər hektarına görə 260 manat (220 əkin subsidiyası +40 manat dizelin bahalaşmasından sonra artırılan subsidiya məbləği), təhvil verilən pambığın hər tonuna görə 100 manat subsidiya ödənilir. Subsidiya almaq istəyən fermerlər öz əkinlərini digər yazlıq əkinlər kimi mayın 31-dək Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində bəyan etməlidir.

Subsidiyalar pambıqçıların “Fermer kartı”na köçürülür. “Fermer kartı”nın nağdsız hesabında olan məbləğ yalnız elektron qaydada gübrə, toxum, pestisid almaq üçün istifadə edilə bilər.

Qeyd edək ki, ötən il Azərbaycanda sahələrdən 336,5 min ton pambıq yığılaraq qəbul məntəqələrinə təhvil verilib. Pambıq üzrə orta məhsuldarlıq 2019-cu ildə 29,5 sentner, 2020-ci ildə 33,6 sentner təşkil edib. Bu, Azərbaycan pambıqçılıq tarixində qeydə alınmış ən yüksək orta məhsuldarlıq göstəricilərindən biridir.

## Ərzaq təhlükəsizliyinin təminatında aqroparklar və iri fermer təsərrüfatları xüsusi rol oynayır




Hazırda bütün dünyada ərzaq təhlükəsizliyinin təmin edilməsinə xüsusi fikir verilir. Səbəb aydın və sadədir - planetimizdə əhali sürətlə artdığı üçün kənd təsərrüfatı məhsullarına tələbat çoxalır və bu üzdən onların qiyməti də yüksəlir.

İdxal olunan məhsulların bahalaşması isə istənilən ölkənin vətəndaşlarının alıcılıq qabiliyyətinə mənfi təsir göstərir. Odur ki, dövlətlərin kənd təsərrüfatı sahəsinin inkişafına marağının artması təsadüfi deyil.

Prezident İlham Əliyevin xüsusilə 2015-ci ildən bəri apardığı geniş aqrar islahatlar da kənd təsərrüfatı məhsulları istehsalının artmasına xidmət edir və bəri başdan qeyd edək ki, buna nail olunur da. Bunu bazarlardakı məhsulların kəmiyyət və çeşidlərindən də aydın görürük. Əvvəllər idxal etdiyimiz bir sıra məhsulun yerini indi yerli mallar tutur. Hələ üstəlik həmin məhsulların bir çoxu daxili tələbatı ödəməklə yanaşı, xarici bazara da çıxarılır.

Buna baxmayaraq, aqrar sektorda islahatlar davam edir. Dövlət kəndliyə maddi və hüquqi dəstəyini getdikcə gücləndirir. Güzəştli kredit alanlar arasında kənd təsərrüfatı sahəsində çalışanlar üstünlük təşkil edir.

Bu o deməkdir ki, əlində torpağı və işləməyə həvəsi olan fermer maliyyə sarıdan çətinlik çəkmir. Məlumdur ki, əvvəllər bir çox fermer maddi vəsait olmadığından torpaq paylarından əkin üçün istifadə edə bilmirdi. İndi isə dövlətin fermerlərə verdiyi bu cür maliyyə dəstəyi aqrar sahənin inkişafında önəmli rol oynayır. Fermerlərə əkdikləri əkin sahələri üçün subsidiyalar da verilir. Həmçinin gübrə, kənd təsərrüfatı texnikası, toxum və damazlıq heyvanlar da kəndliyə pulsuz verilir, yaxud güzəştli qiymətlərlə satılır. Ən başlıcası isə fermerlər torpaq vergisindən savayı, bütün növ vergilərdən azaddırlar. Bir sözlə, kəndliyə verilən bu dəstək kənd təsərrüfatının inkişafını, daha doğrusu, məhsul istehsalını stimullaşdıran başlıca faktordur.

Hazırda Azərbaycanda fermerlərə təkcə məhsul istehsalında yardım göstərilmir, yetişdirdikləri məhsulun xarici bazara çıxarılmasına da dəstək verirlər. Məsələn, aqrar sahədə məhsul ixracını təşviq etmək üçün ixrac olunan məhsula görə onlara əlavə maddi yardım göstərilir. Belə stimullaşdırma sayəsində kənd təsərrüfatı məhsulları ixracında böyük dönüş yaranıb. Təsadüfi deyil ki, hazırda qeyri-neft məhsullarının ixracında kənd təsərrüfatı məhsulları ilk birinci yerdədir.

Aqrar sektorda məhsul istehsalını artırmaq üçün tədbirlər əsasən iki istiqamətdə həyata keçirilir. Birincisi, əhalinin məşğulluğunda və məhsul istehsalında önəmli rol oynayan kiçik və orta kəndli-fermer təsərrüfatlarının inkişafına dəstək verməkdir. İkincisi isə aqrar sektorda iri fermer təsərrüfatları və aqroparkların yaradılmasının təşviq edilməsidir. Bu iki yol bir-birinə rəqib deyil, əksinə, bir-birini tamamlayır. Məsələn, iri aqroparkların istehsal sahələri ilə yanaşı, emal müəssisələri də olur. Kiçik və orta fermer təsərrüfatları öz məhsullarını əlavə vaxt və vəsait xərcləmədən həmin aqroparkların emal müəssisələrinə sata bilir.

Qeyd etdiyimiz kimi, dövlətin apardığı aqrar siyasətin bir istiqaməti də iri fermer təsərrüfatları və aqroparkların yaradılmasını stimullaşdırmaqdır. İndiyədək bu sahədə əldə olunan təcrübə göstərir ki, ölkədə ərzaq təhlükəsizliyinin təminatında belə müəssisələr mühüm rol oynaya bilər. Məsələn, taxılçılıq sahəsində fəaliyyət göstərən kiçik və orta fermerlərin əkin sahələrindən əldə etdikləri məhsuldarlıq 30 sentner olduğu halda, aqroparklarda bu rəqəm 55-60 sentnerə çatır.

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev aprelin 20-də Hacıqabul rayonuna səfəri zamanı “Agro Dairy” Məhdud Məsuliyyətli Cəmiyyətin aqroparkının təqdimat mərasimində iştirak etmişdir. Dövlət başçısına verilən məlumatdan bəlli olur ki, “Agro Dairy” MMC regionlarda kənd təsərrüfatı infrastrukturunun yaxşılaşdırılması, müasir texnika və innovasiyaların tətbiqi ilə yüksək məhsuldarlığa malik keyfiyyətli məhsul əldə etmək məqsədilə layihələr həyata keçirir. Samux rayonunun Qaraağaclı kəndi ərazisində ümumi sahəsi 2698, Tovuz rayonunun Ceyrançöl ərazisində 7000 və Padarçöl (Hacıqabul, Şamaxı) ərazisində 5000 hektar olan sahələrdə intensiv bitkiçilik təsərrüfatları yaradılıb, yeni ərazilər əkin dövriyyəsinə cəlb edilib.

Hazırda Azərbaycanda fəaliyyət göstərən aqroparkların hər birinin özünəməxsus istehsal və emal müəssisələri var. Bəzi aqroparklar bir sahə üzrə, məsələn, heyvandarlıq və ya bitkiçilik üzrə fəaliyyət göstərir. Bununla yanaşı, qarışıq fermer təsərrüfatları, yəni eyni vaxtda bitkiçilik və heyvandarlıqla məşğul olan fermer təsərrüfatları da mövcuddur. Ölkə üzrə 50 belə təsərrüfatın yaradılması nəzərdə tutulur. Mövcud aqroparkların əldə etdiyi nəticələrsə onu göstərir ki, belə müəssisələr yüksək məhsul istehsal etməklə ölkəmizin ərzaq təhlükəsizliyinə sanballı töhfə verə biləcəklər.

***Rüstəm KAMAL, “Azərbaycan”***

## Azərbaycan “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizində mühüm ölkə olacaq

Hindistanın xarici işlər naziri Subramanyam Cayşankir “Çabahar günü” sammitində çıxış edərək təklif edib ki, İranın Çabahar limanı “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinə daxil edilsin.




AZƏRTAC xəbər verir ki, nazir limanın əhəmiyyəti haqqında danışaraq deyib ki, Cənub-Şərqi Asiya ölkələri ilə Avropa dövlətləri arasında nəqliyyat əlaqəsinin səmərəsini artırmaq üçün Çabahar beynəlxalq dəhlizə daxil edilməlidir. Onun sözlərinə görə, Avropa ölkələri Asiya, Asiya ölkələri isə Avropa bazarlarına yaxın və təhlükəsiz yolla çıxış əldə edə biləcək.

Süveyş kanalında tıxacın yaranması və neqativ nəticələr Asiya dövlətlərini düşünməyə vadar edib. Məsələnin mahiyyəti ondan ibarətdir ki, Cənub-Şərqi Asiya ölkələrindən Avropaya yük daşıyan gəmilər Süveyş kanalından keçməklə 16 min kilometr yol qət edirlərsə, “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi ilə cəmi 7 min 200 kilometr yol qət edəcəklər. Yüklər 60 gün ərzində deyil, 30 gün ərzində mənzil başına çatdırılacaq. Bununla yanaşı, nəqliyyat xərcləri də 40 faiz düşəcək. Hindistan 20 faiz nəqliyyat xərclərinə qənaət etmiş olacaq.

İqtisadçı analitik Şöhrə Pulab “Chabahar news” saytındakı məqaləsində yazır ki, Çabaharla yanaşı, Oman dənizindəki Şəhid Behişti və Şəhid Kələntəri limanları da dəhlizə qoşula bilər. Bu limanlar yükləri boşaldıb qatarlara yükləmək imkanına malikdir. Onun fikrincə, İranla yanaşı idxal-ixrac əməliyyatlarını həyata keçirən Cənub-Şərqi Asiya ölkələri yalnız Avropa ilə deyil, eyni zamanda Qafqaz, Orta Asiya, Ukrayna, Belarus və Pribaltika respublikaları ilə də nəqliyyat əlaqəsi yaradacaqlar. Analitik hesab edir ki, İran tez bir zamanda Çabahar-Zahidan və Rəşt-Astara dəmir yollarını inşa edib istismara buraxmalıdır. Çabahar-Zahidan yolu limanla İranın mərkəzini, Rəşt-Astara yolu isə Azərbaycana çıxışı təmin edəcək.

Beləliklə, Hindistanın Mubai limanında Çabahar limanına daxil olan yüklər Çabahar-Zahidan xətti ilə Rəşt-Astara dəmir yolu vasitəsilə daşınaraq Azərbaycan və Rusiya ərazisindən tranzit olaraq keçərək Qərbi Avropaya çatdırılacaq.

Xüsusi bir məqamı qeyd edən analitik nəzərə çatdırıb ki, ABŞ Çabahar limanını sanksiyalardan kənarda saxlayıb. Sanksiyalar Çabahar-Zahidan və Rəşt-Astara dəmir yollarının çəkilişinə maneə olsa da, Vyanada aparılan danışıqlar müsbət nəticə verəcək. Rəsmi Vaşinqton İranın nüvə proqramı məsələsini həll etməkdə qərarlıdır və yeni Prezident Co Baydenin seçilən kimi bu problemlə məşğul olmağa başlaması təsadüfi deyil.

“Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin əsas seqmenti olan Qəzvin-Rəşt-Astara(İran)-Astara(Azərbaycan) dəmir yolunun Qəzvin-Rəşt-hissəsi artıq istismara verilib. İran çətinliklərə baxmayaraq, bu yolu inşa edə bildi. Rəşt-Astara hissəsində isə işlər davam edir.

Azərbaycan Respublikası bu layihədə mühüm rola malik olan dövlətlərdən biridir. Tranzit ölkə olaraq Azərbaycan hökuməti ilk növbədə Astara(Azərbaycan)-Astara(İran) dəmir yolu xəttini inşa edərək İran ilə Azərbaycanın dəmir yolları sistemlərini birləşdirib. Bundan başqa, Bakı limanında yenidənqurma işləri həyata keçirilib və yükaşırma imkanları dəfələrlə artırılıb. Onu da qeyd edək ki, yeni Bakı-Astara avtomobil yolu da çəkilib ki, bu da dəhlizə daxil olan seqmentlərdən biridir.

Yuxarıda deyilənləri nəzərə alaraq qeyd etmək lazımdır ki, “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin fəaliyyətə başlaması üçün yalnız İran ərazisində Çabahar-Zahidan və Rəşt-Astara dəmir yollarının tamamlanması işləri qalır.

İranın şəhərsalma və yollar naziri Məhəmməd İslami cari ilin fevralında Çabahar-Zahidan dəmir yolu xəttinin təməlqoyma mərasimində iştirak edərək bildirib ki, yol 2023-cü ilə kimi istifadəyə veriləcək. Nazir Rəşt-Astara xətinin də həmin ildə istismara buraxılacağını deyib. Proqnozlar özünü doğrultsa, 2 ildən sonra “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi fəaliyyətə başlayacaq və Azərbaycan tranzit ölkə olaraq dəhlizdə mühüm əhəmiyyət kəsb edəcək. Burada söhbət yalnız tranzit gəlirlər əldə etməkdən getmir. Dünyanın Çin, Hindistan, Rusiya kimi iri iqtisadi dövriyyəyə malik olan dövlətləri ilə Azərbaycanın geniş iqtisadi və siyasi əlaqələri yaranacaq. Bu dövlətlər dünya bazarına Azərbaycandan keçməklə çıxdıqlarına görə ölkəmizə qarşı müttəfiqlik siyasəti yürüdəcəklər.

## BƏT ekspertləri ilə növbəti müzakirələr aparılıb

İş yerində peşə bacarıqlarının artırılması, istehsalat təlimi ilə bağlı şagirdlik üzrə normativ bazanın təkmilləşdirilməsi məsələlərinə dair Beynəlxalq Əmək Təşkilatının (BƏT) ekspertləri ilə birgə növbəti videokonfrans keçirilib.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev istehsalat təlimlərinin, peşə təhsili üzrə şagirdlik sisteminin, müəyyən təcrübə keçmənin, iş təcrübəsi proqramları üzrə təlimlərin təşkili praktikasının işçi qüvvəsinin bilik və bacarıqlarının artırılmasında mühüm rolunu qeyd edib. Nazir müavini BƏT-in müvafiq sənədlərində də bu məsələnin əksini tapdığını deyib. İşçi qüvvəsinin əmək bazarının tələblərinə daha çox uyğunlaşması və iqtisadiyyatın inkişafına uyğun rəqabət qabiliyyətinə malik olması ilə bağlı dünyada bir çox təcrübələrin olduğunu bildirib. A.Əliyev ölkəmizdə də şagirdlik üzrə normativ bazanın təkmilləşdirilməsi işlərinin aparıldığını diqqətə çatdırıb. Bu sahədə BƏT ekspertləri ilə birgə işlərin önəmini vurğulayıb.

BƏT-in beynəlxalq əmək standartları və əmək hüququ üzrə baş mütəxəssisi Leo Sibbel, səriştələrin inkişafı sistemləri üzrə baş məsləhətçisi Aşvani Aqarval, “MDB-də Gənclərin Məşğulluğu üçün Tərəfdaşlıqlar” layihəsinin rəhbəri Ramiro Pizaro mövzu ilə bağlı BƏT yanaşmalarını diqqətə çatdırıblar.

Konfransda istehsalat təlimi ilə bağlı şagirdlik üzrə normativ bazanın təkmilləşdirilməsi məqsədilə Əmək Məcəlləsinə nəzərdə tutulan dəyişikliklər layihəsi müzakirə olunub.

Ədəbi simalar

# Örnək insan ömrü



Onun XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafında xidmətləri misilsizdir. Yazıçı, alim, pedaqoq, xeyirxah insan ömrü yaşamaq, bir ömrə bu qədər böyük işləri sığdırmaq hünərini göstərib Mir Cəlal Paşayev.

Ürək yanğısı ilə oxunan əsərlərin müəllifi olan görkəmli yazıçının öz həyatı da elə maraqlı bir romandır. Bu romanın ilk sətirləri kədərlidir... 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanın Ərdəbil vilayətində yoxsul kəndli ailəsində dünyaya göz açan Mir Cəlal kiçik yaşlarından dünyanın qəmli, qüssəli üzünü görüb. Əzabını, dərdini tanıyıb...

O, balaca ikən atası Gəncəyə köçüb. Mir Cəlalın uşaqlıq illəri bu şəhərdə keçib. Güzəranları çətin olsa da, o zamanlar sığınmağa atası vardı. Ancaq 1918-ci ildə atası vəfat edib. Onda Mir Cəlalın on yaşı olub. O, böyük qardaşının himayəsində böyüyüb.

Həyatın keçməkeşlərindən keçib. Çox çətinliklərə sinə gərib. Ancaq bu yoxluqlar, əzab-əziyyətlər onun ümidini əlindən ala bilməyib. Həyatın bütün sınaqlarına, çətinliklərinə rəğmən ömrünün gələcəyinə doğru inadla, inamla irəliləyib.

O illərdə oxumağa, öyrənməyə böyük marağı olub. Bu istəklə 1918-1919-cu illərdə Xeyriyyə Cəmiyyətinin köməyi ilə ibtidai təhsil alıb. 1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulub. Gəncə Darülmüəllimliyinə daxil olan Mir Cəlal 1924-1928-ci illərdə təhsilini orada davam etdirib. Fəallığı, təhsilə həvəsi ilə seçilən Mir Cəlal Paşayev 1926-1927-ci illərdə tələbə təşkilatının, sonra isə şəhər tələbə həmkarlar təşkilatının sədri olub. 1928-ci ildə Gəncə Darülmüəllimi bitirib. Pedaqoji fəaliyyətə başlayıb. Gədəbəy yeddiillik məktəbində müəllim işləyib. 1929-1930-cu illərdə isə o, 1 nömrəli Gəncə şəhər məktəbində direktor vəzifəsində çalışıb.

Oxumağa, öyrənməyə sonsuz həvəsi onu başqa bir təhsil ocağına aparıb. 1930-1932-ci illərdə Kazan Şərq Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsində təhsil alıb.

## Elmi axtarışlar yolunda...

1932-ci ildə Bakıya gəlib. Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun aspiranturasına daxil olub. 1932-1935-ci illərdə Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunda elmi işçi kimi fəaliyyət göstərib. "Kommunist" qəzetində şöbə müdiri, "Gənc işçi" qəzetində məsul katib işləyib.

Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun aspiranturasında təhsilini davam etdirməklə bərabər, müəllimlik fəaliyyəti ilə də məşğul olub. Millətinin övladlarına xalqının ədəbiyyatını, mədəniyyətini, zəngin keçmişini öyrədib.

1940-cı ildə "Füzulinin poetikası" mövzusunda namizədlik dissertasiyası, 1947-ci ildə isə "Azərbaycanda ədəbi məktəblər" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Ədəbiyyat nəzəriyyəsinə dair araşdırmaları, xüsusilə məşhur "Ədəbiyyatşünaslığın əsasları" dərsliyi Azərbaycan filoloji mühitində maraqla qarşılanıb. "Klassik irs və müasirləri"mizə dair məqalələri, monoqrafik tədqiqatları, "Azərbaycanda ədəbi məktəblər" mövzusunda yazdığı doktorluq dissertasiyası, "Füzuli sənətkarlığı", "Cəlil Məmmədquluzadə realizmi haqqında" və digər əsərləri onu dərin ədəbi-nəzəri düşüncəyə malik, ardıcıl və sistemli şəkildə tədqiqatlar aparan yorulmaz alim kimi tanıdıb.

Mir Cəlal Paşayevi bu gün də nümunəvi pedaqoq kimi sonsuz sevgi ilə xatırlayırlar. O, müəllimlik fəaliyyətinə gənc yaşlarından başlayıb. Mir Cəlal Paşayev bütün ömrü böyu öyrənmək qədər öyrətməyi də çox sevib. Azərbaycan Dövlət Universitetində dosent, 1948-ci ildən professor kimi fəaliyyət göstərib. 1961-ci ildən Azərbaycan ədəbiyyatı kafedrasının müdiri olub.

## Ədəbi fəaliyyəti...

O, ədəbi fəaliyyətə 1928-ci ildə şeirlə başlayıb. Həmin il mətbuatda "Dənizin cinayəti", "Ananın vəsiyyəti", "Müxbir" adlı ilk şeirləri çap edilib. 1930-cu ildən hekayələr yazıb. O illərin "Şərq qadını", "Gənc işçi", "İnqilab və mədəniyyət", "Ədəbiyyat qəzeti" kimi nüfuzlu nəşrlərində "Doktor Cinayətov", "İfşa", "Mərkəz adamı", "Naxələf", "Bostan oğrusu", "Qüdrət nümayişi", "İstifadə", "Dəzgah qızı", "Heyrət" və digər hekayələri dərc olunub. 1932-ci ildə işıq üzü görən "Sağlam yollarda" adlı ilk kitabı onu istedadlı yazıçı kimi oxuculara sevdirib. 1935-ci ildə "Boy" adlı ilk oçerklər və novellalar kitabı çapdan çıxıb.

Mir Cəlal Paşayev öz xalqının, Azərbaycanının vurğunu idi. Milli düşüncələr, təəssübkeşlik hissi çoxşaxəli yaradıcılığının əsas qayəsiydi. Onun əsərlərində mənəvi dəyərlərin, xalq təfəkkürünün işığı var. Bu işıq oxucusunun da qəlbini nurlandırır. Yazıçı Mir Cəlal Paşayevin təsvir etdiyi hadisələr, ədəbi qəhrəmanları reallığı, təbiiliyi ilə diqqəti cəlb edir. Oxucuya təsir göstərir, inandırır. Əsərlərində Mir Cəlal Paşayev həm tarixi, həm də dövrün hadisələrini təsvir edib. O, "Dirilən adam", "Bir gəncin manifesti", "Yolumuz hayanadır" romanlarında keçmiş, "Açıq kitab", "Yaşıdlarım", "Təzə şəhər" romanlarında isə müasir həyat lövhələrinin bədii təsvirini ustalıqla qələmə alıb.

"Mir Cəlal "Dirilən adam"la diqqətli bir realist yazıçı olduğunu göstərmişdir". Yarım əsr bundan əvvəl akademik Məmməd Arif bu dəyərli fikri Mir Cəlal Paşayevin ilk irihəcmli əsəri haqqında bildirib. Həmin əsər - "Dirilən adam" romanı 1935-ci ildə ayrıca kitab kimi nəşr edilib.

Mir Cəlal Paşayevin yaradıcılığında xüsusi yer tutan daha bir əsəri - "Bir gəncin manifesti" ilk dəfə 1937-1939-cu illərdə hissə-hissə "Revolyusiya və kultura" jurnalında dərc olunub. Bu əsər müəllifə böyük oxucu auditoriyası qazandırıb. "Bir gəncin manifesti" 1940-cı ildə "Uşaqgəncnəşr"də kitab halında kütləvi tirajla, oxucu tələbatı nəzərə alınaraq sonrakı illərdə isə təkrar çap olunub. Doqquz dəfə müxtəlif illərdə ayrıca kitab halında işıq üzü görən "Bir gəncin manifesti" Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda da sevilir.

Mir Cəlal Paşayevin 1961-ci ildə oxuculara təqdim olunan "İnsanlıq fəlsəfəsi" kitabında toplanmış hekayələri də böyük tərbiyəvi-əxlaqi əhəmiyyətə malikdir. "Vicdan mühakiməsi", "Vicdan əzabı", "İnsanlıq fəlsəfəsi", "Subaylıq fəlsəfəsi", "Təzə toyun nəzakət qaydaları", "Hesab dostları", "Təsadüf ya zərurət", "Qocaların uşaq söhbəti" və başqa hekayələrində yazıçının real həyat hadisələrinə baxışı, fəlsəfi düşüncələri əksini tapıb. Mir Cəlalın "Bir gəncin manifesti" əsəri, zəmanənin güzgüsü olan hekayələri Azərbaycan ədəbiyyatının klassik bədii nümunələri olub. Yazıçının bədii yaradıcılıq nümunələri dəfələrlə nəşr edilib. Kitabları hər zaman oxucular tərəfindən maraqla qarşılanıb.

Bu gün yalnız Azərbaycanda deyil, ölkəmizin sərhədlərindən kənarda da görkəmli yazıçının həyat və yaradıcılığı geniş şəkildə öyrənilir. Əsərləri maraqla oxunur.

"UNESKO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında" Azərbaycan Prezidentinin 2008-ci il 31 yanvar tarixli sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd olunub. Parisdə, UNESKO-nun iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasimin keçirilməsi həm də Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən dəyərdir.

## Mir Cəlal Paşayevin yaratdığı ən böyük əsər

İnsan ömrü əbədi deyil. Onu əbədi edən yalnız əməlləri, yaratdıqlarıdır. 1978-ci il sentyabrın 28-də dünyasını dəyişən Mir Cəlal Paşayevə də qələmə aldığı ədəbi-bədii nümunələri, elmi əsərləri, bir də xatirələrdən silinməyən, minnətdarlıqla anılan xeyirxahlığı ölməzlik qazandırıb. Bu dünyanı tərk etdiyi, əbədiyyətə qovuşduğu gündən on illər ötsə də, onu həqiqət, düzlük, səmimiyyət aşiqi kimi yada salırlar.

Mir Cəlal Paşayevin adı bu gün də həm alim, yazıçı, pedaqoq və hər kəsin dadına yetən, kömək əlini uzadan bir insan, həm də gözəl ailə başçısı kimi nümunə göstərilir. Həyatı boyu müxtəlif sahələrdə gərgin çalışsa da, o, ailəsindən, övladlarından qayğısını, sevgisini əsirgəməyib. Hər zaman - "Həyatımda yaratdığım ən böyük əsər ailəmdir" deyib Mir Cəlal Paşayev.

Zaman bir yerdə dayanmır. İllər ötür... Mir Cəlal Paşayevin adı, imzası yaşayır. Onun elmi irsi tədqiq edilir. Bədii əsərləri sevilə-sevilə oxunur. Xeyirxahlığı, böyük və əlçatmaz müəllimliyi minnətdarlıqla xatırlanır, gələn yeni nəsillərə örnək göstərilir...

**Zöhrə FƏRƏCOVA,**
**"Azərbaycan"**

26 aprel Beynəlxalq Əqli Mülkiyyət Günüdür

# Ölkəmizin əqli mülkiyyət sahəsi dinamik inkişaf edir

26 aprel Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) tərəfindən 2000-ci ildə "Beynəlxalq Əqli Mülkiyyət Günü" elan edilmiş və bu tarix hər il müxtəlif devizlər altında ÜƏMT üzv dövlətləri tərəfindən qeyd olunur. Ölkəmizdə də bu əlamətdar hadisə müxtəlif silsilə tədbirlərlə həyata keçirilir.

Azərbaycan 1995-ci ildən ÜƏMT-nin üzvüdür və demək olar ki, həmin təşkilatın inzibati idarəçiliyi altında olan əksər konvensiya, müqavilə və sazişləri ratifikasiya etmişdir. Ölkəmizdə Əqli Mülkiyyət Agentliyinin təşəbbüsü ilə "Beynəlxalq Əqli Mülkiyyət Günü"nə həsr olunmuş tədbirlərdə əqli mülkiyyət (ƏM) hüquqlarının innovasiya və yaradıcılığın inkişafına necə, hansı üsul və vasitələrlə töhfə verməsi barədə ictimaiyyət geniş məlumatlandırılır, əqli mülkiyyət gündəminin aktual məsələlərinin ümumi inkişaf kontekstinə təsiri və rolu açıqlanır.

COVID-19 pandemiyasının məhdudiyyətləri ilə əlaqədar bu tədbirlərin coğrafiyası kiçilsə də, tarixi gün öz aktuallığını saxlamaqdadır. Cari ildə ÜƏMT-ın bu günlə əlaqədar yaydığı bəyanatı "Əqli mülkiyyət və kiçik və orta müəssisələr. İdeyalarınızı necə kommersiyalaşdırmaq olar" mövzusuna həsr edilmişdir.

Ümumiyyətlə, iqtisadi və sosial inkişaf proseslərində əqli mülkiyyətin getdikcə artan əhəmiyyəti nəzərə alınmaqla dünya ölkələrində bu sahəyə xüsusi diqqət yetirilir. Ölkəmizdə də əqli mülkiyyət üzrə aparılan işlərdə intensivlik daha da artır və bu, aidiyyəti qurumların fəaliyyət planlarında, onların icra olunmasında, geniş mənada cəmiyyətin proseslərə qoşulmasının təşviq edilməsində özünü büruzə verir. Azərbaycanda əqli mülkiyyət sahəsində görülmüş işlərlə qısa tanışlıq belə, həyata keçirilən qərar və tədbirlərin miqyası və əhəmiyyətindən xəbər verir. Yalnız 2020-ci ildə bu sahəyə dair Azərbaycan Respublikasının Prezidenti tərəfindən 7 fərman imzalanmış, Milli Məclis tərəfindən 2 qanun, Nazirlər Kabinetinin 3 qərarı və 5 sərəncamı qəbul edilmişdir. Eyni zamanda, ölkəmizin bu sahə üzrə beynəlxalq əlaqələrinin və nüfuzunun təsir dairəsinin genişlənməsi baxımından əhəmiyyətli olan "1994-cü il 9 sentyabr tarixli Avrasiya Patent Konvensiyasının Sənaye nümunələrinin mühafizəsinə dair" Protokolunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 5 may tarixli Qanunu qəbul edilmiş və respublikamız həmin protokola qoşulmuşdur.

Dövlət başçısının rəhbərliyi altında həyata keçirilən genişmiqyaslı iqtisadi və institusional islahatlar əqli mülkiyyət yönümündə də əhəmiyyətli dəyişikliklərə gətirib çıxarmış, bu sahədə vahid dövlət siyasətini həyata keçirən optimal idarəetmə strukturu yaradılmışdır. Qeyd etmək zəruridir ki, çalışan dövlət qulluqçularının sayı 43 nəfər, işləyənlərin ümumi sayı isə 32 nəfər azaldılaraq, il ərzində bir milyon 100 min manatdan artıq vəsaitə qənaət etmək mümkün olmuşdur. Dövlət büdcəsindən yalnız Əqli Mülkiyyət Agentliyinin dövlət qulluqçularına bərabər tutulan işçilərinin əməkhaqları maliyyələşdirilir. Agentliyin saxlanma xərcləri və tabeliyində olan üç mərkəzin (publik hüquqi şəxs) bütövlükdə fəaliyyəti özünümaliyyələşdirmə prinsipi əsasında həyata keçirilir. Bu isə institusional islahatın effektivliyinin təsdiqidir.

Ötən il - pandemiya dövrü bütün sahələrdə olduğu kimi, Əqli Mülkiyyət Agentliyinin gündəlik işinə də təsir etmiş, vətəndaşlara xidmət, iş ahənginin saxlanılması üçün müvafiq addımların atılması məcburiyyətində qalmışdır.

Bu sıradan dövlət başçısının hər zaman diqqətində olan vətəndaşlara xidmət sahəsi ayrıca qeyd olunmalıdır. Şəffaflıq və yüksək fəaliyyət səviyyəsi baxımından agentlikdə xidmətlərin, demək olar ki, əksər hissəsi onlayn rejimə keçirilmişdir. Eyni zamanda agentliyin Dövlət Xidmətləri Portalı üzərindən həyata keçirdiyi 19 xidmətdən 13-ü elektronlaşdırılıb və bununla vətəndaşlara daha operativ və səmərəli xidmət göstərmək imkanı yaradılmış, həmin xidmətlərin fasiləsiz fəaliyyət göstərməsi təmin edilmişdir.

Xidmət keyfiyyətinin və şəffaflığın təmin olunması üçün innovativ həllər sırasında ayrıca qeyd edilməli məsələlərdən biri də agentliyə müraciət edən vətəndaşların rəğbətlə qarşıladığı "Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf" (PƏNAH) rəqəmli informasiya sisteminin istifadəyə verilməsidir. Bu məhsul sıfırdan yerli məhsul kimi yaradılaraq, demək olar ki, bir milli brendə çevrilmişdir. Sistemin işə salınması ilə sənaye mülkiyyəti obyektlərinin (yəni əmtəə nişanları və patentlər) qeydiyyatı sahəsində "vahid pəncərə" prinsipinin, şəffaflığın və çevikliyin tətbiqinə nail olunmuşdur. Sistem Hökumət Ödəniş Portalına uğurla inteqrasiya olunmuşdur.

Agentlikdə vahid və sahə üzrə unifikasiya edilmiş Çağrı Mərkəzinin fəaliyyəti də xüsusi vurğulanmalıdır. Vətəndaşlar Əqli Mülkiyyət Agentliyinin çoxşaxəli fəaliyyəti barədə məlumatı vahid sorğu mərkəzindən 960 "qaynar xətt" vasitəsilə ala bilərlər.

Aparılan islahatlar və yaradılan platformaların müsbət təsiri özünü statistik rəqəmlərdə də büruzə verir. Patent sisteminin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsi olaraq, ölkəmizdə patent və ixtira fəallığı artmışdır. Belə ki, il ərzində ixtira, faydalı model və sənaye nümunələrinə dair 3348 müraciət və ərizəyə baxılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Sənaye mülkiyyəti obyektləri üzrə dövlət reyestrində ixtiralara dair 110 patent (2019-cu ildə 102), faydalı modellərə dair 40 patent (2019-cu ildə 16), sənaye nümunələrinə dair 31 patent qeydiyyata alınmışdır.

Müvafiq dövlət reyestrində 1043 ədəd əmtəə nişanı qeydiyyatdan keçirilmiş, coğrafi göstəricidən istifadə hüquqlarına dair 2 şəhadətnamə milli iddiaçının adına qeydiyyata alınmışdır.

Müəlliflik hüququ sahəsində də müsbət dinamika müşahidə olunur - 2020-ci ildə 233 müəllifin 454 əsəri qeydiyyata alınmış, 468 şəhadətnamə verilmişdir. "Elektron xidmət" bölməsi vasitəsilə 91 müəllifin 192 əsəri qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında 197 şəhadətnamə təqdim olunmuş, 23 müqavilə qeydiyyata alınmışdır.

Ölkədə aparılan islahatlar və sahə üzrə nəticələr, nailiyyətlər nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də dəyərləndirilir. Misal və müqayisə üçün bildirək ki, Qlobal İnnovasiya İndeksi (QİI) üzrə reytinqdə Azərbaycan öz mövqelərini xeyli möhkəmləndirmişdir. Məsələn, "Kreativ fəaliyyətin nəticələri" bloku üzrə 2019-cu ildəki 84-cü yerlə müqayisədə 19 pillə irəliləyərək 65-ci yerə, "Qeyri-maddi aktivlər" göstəricisi üzrə isə 2019-cu ildəki nəticəni (76-cı yer) 20 pillə yaxşılaşdıraraq 56-cı yerə yüksəlmişdir. Ölkəmiz "Rezidentlərin ixtira müraciətləri" (64-cü yer) və "Rezidentlərin faydalı model müraciətləri" (50-ci yer) kimi göstəriciləri üzrə də kifayət qədər yuxarı sırada yer almışdır.

Dünya İqtisadi Forumunun Qlobal Rəqabətqabiliyyətlilik İndeksi üzrə sonuncu hesabatına görə isə Azərbaycan 141 ölkə arasında "əqli mülkiyyətin qorunması" göstəricisinə görə 30-cu yeri tutur. Bu göstərici üzrə ölkəmiz MDB dövlətləri arasında birinci yerdədir və Avropanın bir çox ölkəsindən irəlidədir.

Əqli mülkiyyət sahəsi dinamik sahə olaraq durmadan inkişaf edir, zamanla ayaqlaşır. Sürətlə inkişaf edən texnologiyalar da əqli mülkiyyət sahəsini bu trendlərə uyğunlaşmağa vadar edir. Əqli Mülkiyyət Agentliyi bu trendləri həm izləyir, həm də yeni dünyada texnologiyaların diktə etdiyi müasir qaydalar çərçivəsində əqli mülkiyyət hüquqlarının təmin olunması və qorunması işini davam etdirir.

Yaxından nəzər saldıqda bir sıra müəllif-hüquq pozuntularının məhz rəqəmsal məkanda baş verdiyinin şahidi oluruq. Agentlik bu yeni çağırışlara da layiqincə cavab verir. Misal üçün, ictimaiyyət arasında geniş rezonansa səbəb olan bir neçə hüquq pozuntusunu və agentliyin həmin pozuntuların aradan qaldırılmasında gördüyü işləri qeyd etmək yerinə düşər.

Azərbaycanın tanınmış bəstəkarı Elza İbrahimovanın qardaşı Çingiz İbrahimov bəstəkar E.İbrahimovanın adına açılmış "Youtube" kanalının "WediaCorp Azərbaycan" şirkəti tərəfindən "Youtube" portalına etdiyi şikayətlər nəticəsində bir çox musiqi nömrəsinin bağlanıldığını bildirmiş və bununla əlaqədar Əqli Mülkiyyət Agentliyindən kömək göstərilməsini xahiş etmişdir. Müraciət əsasında agentlik tərəfindən araşdırmalar aparılmış və görülən tədbirlər nəticəsində E.İbrahimovanın adına olan "Youtube" kanalında bağlanmış musiqi nömrələri açılmışdır. Alban müğənnisi Roveno Dilo tərəfindən "Ne Shkoder te vish" adı altında "Ante" musiqi albomuna daxil edilərək "Youtube" kanalında yerləşdirilməsi ilə bağlı müəllifin pozulmuş hüquqlarının bərpası üzrə tədbirlər görülmüş, albomda müvafiq düzəlişlər aparılmış və nəticə olaraq, istedadlı bəstəkarımızın pozulmuş hüquqları bərpa olunmuşdur.

Agentlik tərəfindən rəqəmsal şəbəkələrdə baş verən hüquq pozuntularının aradan qaldırılması məsələsinə kompleks yanaşma tətbiq olunur. Gələcəkdə baş verə biləcək uyğun hüquq pozuntularının qarşısının alınması məqsədilə hazırda agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzində Multikanal Media Şəbəkəsinin yaradılması istiqamətində iş aparılır.

Hüquqların təminatı sahəsində digər tədbirlər çərçivəsində "Microsoft", "Oracle" və "Trimble Tekla" şirkətlərinə məxsus proqram təminatlarından qeyri-qanuni istifadənin qarşısının alınması ilə bağlı ciddi işlər görülmüşdür. Onların ABŞ şirkətləri olduqlarına görə ABŞ səfirliyinin məsul şəxsləri ilə mütəmadi görüşlər keçirilir və məsləhətləşmələr aparılır.

Agentliyin fəaliyyətində özünəməxsus yer alan daha bir məqamı da qeyd etmək vacibdir. Bu da ölkəmizin tarixi irsinə, ənənələrinə, folkloruna olan qəsdlərin qarşısının alınmasıdır. Ali Baş Komandanımızın başçılığı altında qazandığımız Zəfər əqli mülkiyyətimizin də qorunmasında agentliyə bir örnəkdir.

Agentlik tərəfindən erməni saxtakarlıqlarının ifşa edilməsi ilə əlaqədar hər il "Don bəzəyər də, ifşa edər də" devizi altında müxtəlif formatlı tədbirlər, o cümlədən konfrans və simpoziumlar təşkil olunur. Həmin tədbirlər çərçivəsində ötən il "Erməniçilik uydurmaları digər xalqların hüquqlarına xələl gətirir"; "Armyanskiy qenosid, ili armyanskiy terror?"; "Öz-özünü təkzib edən "erməniçiliyin müəllif hüququ"; "Erməni müəlliflərinin kitablarındakı uydurmalara "müəlliflik hüququ"; "Ənənəvi mədəni nümunələr və biliklər əqli mülkiyyət kimi: erməni plagiatçılığı"; "Erməni tarixi uydurmalarının tarixinə giriş; Моральный террор: против нематериального и материального культурного наследия. Moral terror: against material and intangible cultural heritage"; "Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya digər xalqların siyasi tarixini, tarixi coğrafiyasını və mədəniyyətini özününküləşdirməklə hay-erməni qədimliyinin qurulma cəhdləri"; "Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya "Armeniya" ərazisinin həqiqi sakinləri haqqında. Ancient texts and classic sources expose Armenian falsifications and fabrications or about primordial inhabitants of territory "Armenia". Древние тексты и классические источники разоблачают армянские фальсификации и измышления или об исконных насельниках территории "Арменийа""; "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya ermənilərin Qafqaz avtoxtonluğu cəhdləri" və s. kitabçalar, həmçinin "Erməni yadelli nağılları" kitabı və "Gəldim, gördüm..., mənimsədim" kitabçası (Azərbaycan, rus, ingilis və fransız dillərində) təkrar nəşr edilərək yayılmışdır.

Ç.İbrahimov məsələnin operativ və müsbət həll olunmasında göstərilən köməyə görə agentliyə öz minnətdarlığını bildirmişdir.

Bu qəbildən olan digər bir məsələyə diqqət yetirək. Görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun vərəsələrinin müraciəti əsasında məlum olmuşdur ki, onun "Şeyx Sənan" dram əsərinin tamaşasına bəstələdiyi "Kor ərəbin mahnısı" Belçikada yaşayan erməni əsilli Vardan Hovanissian və musiqiçi Emre Gültekin tərəfindən oğurlanmış və "Houcher" adı altında "Karin" musiqi albomuna daxil edilərək rəqəmsal platformalarda yayılmışdır. Faktla əlaqədar bəstəkarın vərəsələri və Xarici İşlər Nazirliyi ilə birgə zəruri işlər görülmüş, pozulmuş hüquqların bərpası üçün albomun istehsalçısı olan Belçikanın "Muziekpublique" şirkətinə qarşı müvafiq tələblər irəli sürülmüşdür. Nəticə etibarilə agentliyə daxil olmuş məktublarda şirkətin rəhbərliyi hüquq pozuntusuna görə Azərbaycan tərəfindən üzr istəmiş, onun ənənəvi (folklor) musiqi olduğunu zənn edərək istifadə etdiklərini bildirmiş, səhvlərini düzəltmək üçün bütün zəruri işləri görməyə hazır olduqlarını qeyd etmişlər. Hazırda albomun satışı dayandırılmış və özgə adla oraya daxil edilmiş "Kor ərəbin mahnısı" albomdan çıxarılmış, görkəmli bəstəkar Fikrət Əmirovun pozulmuş hüquqları bərpa edilmişdir.

Azərbaycan bəstəkarı Tofiq Quliyevin vərəsəsi Eldar Quliyevin agentliyə müraciəti əsasında atası T.Quliyevin "Sənə də qalmaz" əsərinin musiqisinin

Öncə də qeyd edildiyi kimi, əqli mülkiyyət sahəsi innovasiyaların inkişafı, texnologiyaların yeni qaydaları diktə etdiyi bir dövrdə öz fəaliyyətini davam etdirir. Müasir dövrün tələblərindən biri də elmlə iqtisadiyyat arasında düzgün körpünün yaradılmasından ibarətdir. Texnoloji cəhətdən inkişaf etmiş ölkələr məhz istifadə olunmuş "innovasiya potensialının istifadəsi" göstəricisinin yüksək olması ilə səciyyələnirlər. Bu baxımdan ölkəmizdə elmi potensialın, ixtiraçılıq aktivliyinin artırılması böyük önəm kəsb edir. Bəs buna nail olmaq üçün hansı amillər vacibdir? Sözsüz ki, ən böyük amillərdən biri patentlərin tətbiqidir, vençur kapitalının startaplara axınının təmin olunmasıdır, elmlə sənaye arasında düzgün münasibətlərin qurulmasına nail olmaqdır. Məhz bu məsələlərin həlli məqsədilə Azərbaycan Respublikası Prezidentinin 6 aprel 2021-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi yaradılmışdır.

Bu mərkəz elm və sənaye arasında bağlantı, qarşılıqlı sifariş və təklif münasibətlərinin yaradılması, ixtiraçılıq fəaliyyətinin keyfiyyətcə artırılması və tətbiqi xarakter daşıması üçün texnologiyaların transferi və əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılması üzrə fəaliyyət göstərəcəkdir. Sadə dildə desək, alimlər, ixtiraçılar bazar münasibətləri, maliyyə vəsaitlərinin cəlb olunması, marketinq sahəsində hüquqi münasibətlərin tərtibatında kifayət qədər biliklərə malik olmaya bilərlər. Eyni zamanda, istehsalçılar, sənayeni təmsil edən şirkətlər aparılan araşdırmalar və elmi nailiyyətlərdən xəbərdar olmaya bilərlər. Bu boşluğun aradan qaldırılması və bu peşəkar körpünün yaradılması missiyasını Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi yerinə yetirəcəkdir.

Bu mərkəzin yaradılmasının builki Beynəlxalq Əqli Mülkiyyət Gününün şüarı ilə uzlaşması da ölkəmizin avanqard islahatçı ölkələr sırasında olduğunun göstəricisidir.

Əqli Mülkiyyət Agentliyi beynəlxalq sahədə nailiyyətlərimizin artırılması istiqamətlərində də öz fəaliyyətini davam etdirməkdədir. Bu gün əqli mülkiyyət yönümündə fəal beynəlxalq əməkdaşlığın nəticəsi olaraq, Azərbaycanın nümayəndəsi ilk dəfə olaraq müəllif hüququ üzrə 1886-cı ildən qüvvədə olan və 170 ölkəni birləşdirən məşhur Bern Konvensiyası Assambleyasının sədri vəzifəsinə seçilmişdir. Bununla yanaşı, ÜƏMT-nin rəhbər orqanlarına 2020-ci ildə keçirilmiş seçkilərdə Azərbaycan yenidən ÜƏMT-nin fəaliyyətinin təşkilində xüsusi rolu olan Koordinasiya Komitəsinin və Proqram və Büdcə Komitəsinin üzvü seçilmiş, Azərbaycan nümayəndəsinin ÜƏMT-nin Katibliyində təmsil olunmasına nail olunmuşdur.

Əqli mülkiyyət sahəsində kadr potensialının gücləndirilməsi də agentliyin daim diqqətindədir. Bunun bariz nümunəsi kimi Bakı Dövlət Universiteti ilə agentlik arasında razılaşmaya əsasən orada yaradılmış Əqli Mülkiyyət Hüququ kafedrasını qeyd etmək lazımdır. Həmçinin bu sırada agentliyin dəstəyi ilə Bakı Dövlət Universiteti ilə Fransanın Lion 2 Universiteti arasında ikili diplom proqramı çərçivəsində yaradılmış Əqli Mülkiyyət Hüququ magistraturasının əhəmiyyətini də vurğulamaq lazımdır.

**Rəhman SALMANLI,**
**"Azərbaycan"**

# Pandemiyanın sonunu görmək üçün qaydalara əməl etmək vacibdir




Əvvəli 1-ci səh.

Təhlükəli pandemiyadan qorunmağın vacib şərti budur. Ancaq bəziləri ən sadə qaydalara belə əməl etməyərək dönə-dönə edilən xəbərdarlıqları nəzərə almayaraq təhlükəli virusun əl-qol açmasına, meydanını genişləndirməsinə rəvac verir. COVID-19-a yoluxmuş xəstələrin ictimai yerlərdə aşkarlanması bu faktlardan biridir. Respublika ərazisində daha 7 nəfər aktiv koronavirus xəstəsinin küçədə saxlanılması barədə Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin yaydığı məlumat buna misaldır. Polis əməkdaşları öz vəzifələrini yerinə yetirərək onlarla izahedici söhbətlər aparıb, tibbi prosedurları gözləməklə yaşadıqları evə qaytarıb, bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

"Bir daha vətəndaşlarımızdan koronavirusla əlaqədar tətbiq edilmiş xüsusi karantin rejimindən irəli gələn bütün tələb və qadağalara ciddi riayət etmələrini xahiş edirik" deyə Daxili İşlər Nazirliyinin məlumatında bildirilib.

Azərbaycan dövləti koronavirusla mübarizə tədbirlərini davam etdirir. Ölkəmizdə təhlükəli virus əleyhinə peyvənd olunanların sayı hər gün artır. Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, birinci mərhələdə peyvənd olunanların sayı 8 min 830, ikinci mərhələ üzrə 7 min 260 nəfərdir.

Ölkədə vurulan peyvəndlərin ümumi sayı 1 milyon 412 min 481, birinci mərhələ üzrə vaksin olunanların sayı 934 min 906, ikinci mərhələ üzrə isə 477 min 575 təşkil edir.

Qeyd edək ki, bu gün inkişaf etmiş əksər ölkədə COVID-19-la mübarizədə vaksinasiyanın əhəmiyyətinin olması irəli sürülür. Lakin təəssüf ki, bütün dünyanın kabusuna çevrilən bu qorxulu virus da aşkar edildiyi kimi qalmır. Koronavirusun mutasiyaya uğraması, yeni-yeni xislətdə qarşıya çıxması barədə məlumatlar yayılır. Son məlumata görə, bu virusun daha bir mutasiyası aşkarlanıb. Belə ki, Litvada koronavirusun hələlik adı E848K olaraq müəyyənləşdirilən, daha əvvəl bilinməyən bir mutasiyası aşkarlanıb.

Litva Xalq Sağlamlığı Mərkəzi virusa yoluxanlar arasında vaksinasiyadan keçənlərin də olduğunu açıqlayıb. Mutasiyanın ölkənin şimal-şərqində yerləşən Anikscіay bölgəsində 35 nəfərdə tapıldığı qeyd olunub. Bildirilib ki, bu mutasiyaya yoluxanların xəstəliyi daha ağır keçirməsinə dair məlumat yoxdur, sözügedən ştamma yoluxmuş şəxslərin üçdə biri artıq sağalıb. Yerli televiziya kanalı - LTR onu "Litva mutasiyası" adlandırıb, təhlükəli olmadığını, Norveç və Danimarkada da rast gəlindiyini iddia edib.

Bəli, bir ildən artıqdır ki, bəşəriyyətə qənim kəsilən gözəgörünməz düşmən dondandona girərək həyatını davam etdirdikcə, hər gün yüzlərlə, minlərlə insanın ömrünə son qoyur. Pandemiya başa çatmadıqca kimsə bu bəladan tamamilə uzaq olduğunu düşünə bilməz. Ancaq tarix göstərir ki, insan zəkası, idrakı, elmi bütün təhlükələrə qalib gəlməyə qadirdir. Və sonunda yenə də yenilən gözəgörünməz düşmən olacaq. Bunun üçün hazırda dünyanın qabaqcıl ölkələrində mütəxəssislər elmi araşdırmalarını, tədqiqatlarını davam etdirirlər. Pandemiyanın sonunu görmək üçün yaşamaq, buna görə də qaydalara əməl etmək vacibdir.




**Z.FƏRƏCOVA,**
**"Azərbaycan"**

# ÇİN - barıtdan koronovirusa qədər...

**Dünya olduğu kimi**

## Dünyanın ən qədim xanədanı

**Qədim sivilizasiyanın beşiyi olan Çin bəşəriyyətin ilk əcdadlarının yaşadığı ərazilərdəndir. 1923-cü ildə Pekin yaxınlığında tapılan "Pekin insanı"nın (Sinanthropus pekinensis) qalıqlarının tarixi 400-300 min il əvvələ gedib çıxır. "Müasir insan"ın (Homo sapiens) ilkin forması Çində təxminən 40 min əvvəl yaranıb.**



Çin dövlətinin adının yaranma tarixi Sin sülaləsinin adı ilə bağlıdır. Bu sülalə Çindəki bir necə dövlət arasında gedən mübarizədə qalib gəlib. Sin sülaləsi "Vuruşan padşahlıqlar" dövründə (e.ə. IV-III əsrlərdə) hakimiyyətdə olub.

E.ə. 221-ci ildə Sin Şi Xuandi imperator titulunu qəbul edərək özünü Çinin birinci padşahı adlandırıb. Onun dövründə Çin ilk dəfə vahid dövlətdə birləşdirilib. Çin imperatorluğunun əsasını qoyan Sin Şi Xuandi onu ən güclü dövlət kimi formalaşdıran imperator olub.

Sin Şi Xuandinin dövründə Çin 36 vilayətə bölünüb, vahid çəki, ölçü, pul və yazı sistemi yaradılıb və vahid qanunlar qəbul olunub. Sin sülaləsinin hakimiyyəti 206-cı ildə başa çatıb.

Qeyd edək ki, Çində ilk sülalənin Sya olduğunu (e.ə. 2205-ci - e.ə. 1766-cı illər) desələr də, əsaslı arxeoloji məlumatların olmaması bunu hələ tarixi reallıq kimi qəbul etməyə imkan vermir. XX əsrin 20-ci illərinin sonuna qədər Şan sülaləsinə də əfsanə kimi baxılırdı. Lakin Xenan əyalətində indiki Anyan şəhəri yaxınlığında tapıntılar bu sülalənin mövcudluğunu sübut etdi. Tapılan şəhərin xarabalıqları Pan-qen hökmdarının hakimiyyəti zamanı (e.ə. 1401-ci - e.ə. 1374-cü illər) Xuanxedən cənuba uzanan və tez-tez daşqınlara məruz qalan rayonlardan köçəndən sonra əsası qoyulan şanların paytaxtı ilə uyğun gəlirdi.

VII əsrin əvvəllərində Çində hakimiyyət 289 il hökmranlıq etmiş Tan sülaləsinin (618-907-ci illər) əlinə keçdi. Tan sülaləsinin işğalçılıq siyasəti nəticəsində Koreya və Vyetnam Çinə tabe edilmişdi.

## 2200 illik möhtəşəmlik



**Böyük Cin səddi insan əli ilə tikilmiş ən nadir və qeyri-adi abidələrdən, dünyanın ən böyük möcüzələrindən biridir.**

Çinin şərqindən qərbinədək 4450 kilometrlik bir məsafədə uzanan Böyük Çin səddinin tamaşasına dünyanın müxtəlif ölkələrindən milyonlarla turist gəlir. Üç min ildir ki, Çinin simvoluna çevrilən Böyük Çin səddi Sin Şi Xuandinin hakimiyyəti dövründə - e.ə. 214-cü ildə inşa olunmaga başlayıb. Onun tikintisi 10 ilə qədər davam edib. Sonralar bu müdafiə xəttinin tikintisi yüz illərlə davam etdirilib.

İmperatorun Çin səddinin tikilməsinə dair qərar verməsinin səbəbi hun tayfalarının hücumları ilə əlaqədar olub. Çindən şimalda yaşayan hun tayfaları buraya tez-tez hücum edirdilər. Sin Şi Xuandi də bu hücumların qarşısını almaq üçün sədd tikdirməyə başlayıb. Səddin üstü ilə 5-6 süvari yanaşı hərəkət edə bilərdi.

İmperatorun istəyi bu idi ki, onun tikdirdiyi nəhəng daş divarı heç bir qüvvə yıxa bilməsin, bu səddi aşmaq qeyri-mümkün olsun.

Çinlilərin Vanli Çançen adlandırdıqları bu sədd Sarı dənizin Lyodun körfəzinin sahillərindən başlayıb. Çinin şimal sərhədləri boyunca uzanan və Qobi səhralarından keçən səddin ümumi uzunluğu 4250 kilometrdən artıqdır.

Çin səddinin tarixi əhəmiyyəti həm də ondan ibarət idi ki, o, dağınıq və tayfa halında yaşayan Çin xalqının milli birliyinin əsasını qoyub. Bu dağınıq tayfalar əl-ələ verərək dünyanın ən uzun və nəhəng daş divarını tikiblər.

Səddin tikintisi ayrı-ayrı hissələrə bölünmüşdü və hər hissəni vahid plan əsasında bir tayfanın, qəbilənin üzvləri tikirdi. İmperator Sin Şi Xuandi tikintiyə ümumi rəhbərliyi qoşun böyüyü Men-Tyana tapşırmışdı. Men-Tyan isə tikintini vaxtında, yəni on il müddətinə tikib başa çatdırmaq üçün 350 min əsgəri və yüz minlərlə mülki adamı bu işə cəlb etmişdi. Mülki adamların arasında şəhərli ustalar, əkinçi kəndlilər və on minlərlə həbsxana məhkumları vardı. Səddin birinci hissəsinin uzunluğu 2450 kilometr olmalı idi. Uca dağlardan, dərin dərələrdən, susuz səhralardan keçən bu tikinti çox çətin şəraitdə aparılıb. Tikintiyə inşaat materialları əllə daşınıb, buna yüz minlərlə insan əməyi sərf edilib.

Sonuncu hesablamalar əsasında Çin səddinin uzunluğunun 21 min 196 kilometr olduğu müəyyənləşib.

Alimlər Böyük Çin səddinin cənub-şərqində, Koreya Xalq Respublikası ilə qonşuluqda olan Qirin vilayətindəki hissəni də aşkar ediblər.

*İlhamə İSABALAYEVA, "Azərbaycan"*

## Kağızın və kitabın vətəni



**Barıtın Çində icadı hamıya məlumdur. Ancaq çox adam bilmir ki, kağızın ixtirası da qədim Çində baş verib.**

Bu ixtiranı eramızdan əvvəl 105-ci ildə edən Tsay Lun kağızı tut ağacının lifləri, ağacın külü və çətənə lifini qarışdırmaqla əldə edib. Çinlilər kağızın hazırlanmasının sirrini uzun müddət gizli saxlayıblar.

Ərəblərin sayəsində VIII-IX əsrlərdə kağızdan geniş istifadə olunmağa başlanılıb. Belə ki, 751-ci ildə Tyan-Şan dağları ətəyində Çin Ordusu ilə ərəb ordusu arasında baş verən döyüşdə ərəblər bir necə çinli kağız sənətkarını əsir götürərək onlardan kağızın hazırlanma sirrini öyrənirlər. Bundan sonra kağız istehsalı dünyada geniş yayılmağa başlayıb.

İlk kağız fabriki 794-cü ildə Bağdadda Harun ər-Rəşidin vəzirinin oğlu İbn Fəzl tərəfindən yaradılıb. Belə bir fabrik 800-cü ildə Misirdə, 950-cı ildə Əndəlüsdə (İspaniya), 1100-cü ildə Bizansda, 1102-ci ildə Siciliyada, 1228-ci ildə Almaniyada, 1309-cu ildə isə İngiltərədə fəaliyyətə başlayıb.

İlk qədim kitab da Çində 868-ci ildə yaradılıb. Onun müəllifi Bah Tsze olub. 1041-1048-ci illərdə Çin sənətkarı Bi Şen ayrı-ayrı heroqliflərlə kitab çapının əsasını qoyub.



XI əsrdən etibarən ayn-ayrı heroqliflərdən ibarət yığma şriftlər ixtira edilib. VIII əsrdə Çinin paytaxtında "Paytaxt xəbərləri" ilk gündəlik qəzeti çap olunmağa başlayıb.

Çin dənizçiləri qədimdə ixtira edilmiş kompası XI əsrdə işlədirdilər. Çində II əsrdə seysmoskop, III əsrdə spidometr ixtira edilib.

## Min il gizli saxlanan sirr

**İpəyin hazırlanması üçün istifadə edilən ipəkqurdunun ana vətəni Çindir. Rəvayətə görə, eramızdan əvvəl 2600-cü illərdə Çin imperatoru Hoanq-Ti sarayın bağçasında bir qurdun tut yarpağı yediyini və barama hördüyünü müşahidə edir.**



Bu, imperatorun diqqətini çəkir və həmin qurdun həyat tərzinin daha yaxından araşdırılmasını həyat yoldaşı Şe Linq Şeyə tapşırır. Uzunmüddətli araşdırmalardan sonra baramadan ipəyin alınacağı öz təsdiqini tapır.

Eramızdan əvvəl 2600-cü illərdə ipəkqurdu bəsləyən, ipək parçaları istehsal etməyin yollarını tapan çinlilər bu dəyərli parçaları dünyaya satmağa başlayıblar.

Çin bu kəşfinin sirrini min il gizli saxlayıb. Hətta baramanın sirrini satmağa cəhd edənlər edam da edilib. Amma əsrlər keçdikcə ərəblər və xaç yürüşlərindən geri dönən xristianlar baramanı tədricən Qərbi Avropaya gətiriblər.

İpək yolunun açılması da Çin imperasiyasının hökmdarı U-di-Nin adı ilə bağlıdır. Bu yolla Çindən əsasən ipək daşındığı üçün yol İpək yolu adlandırılıb.

Şərqdəki çox mühüm elmi və texnoloji innovasiyalar Qərbə məhz Çindən başlayan İpək yolu vasitəsilə aparılıb.

Barıt, maqnit kompası, çap dəzgahı, musiqi alətləri, ipək, keramik və boyalı məmulatlar kimi yeniliklərin Qərbə ötürülməsi bu yol vasitəsilə tədricən baş verib.

Eramızdan əvvəl dördüncü əsrdə Makedoniyalı İsgəndər Mərkəzi Asiya istiqamətində Hind çayını keçəndə artıq Çin ipəyinin Aralıq dənizinə çıxışı var idi. Bu qeydlərə əsasən İpək yolunun tarixinin bizim eradan əvvələ təsadüf etdiyi məlum olur.

## Çində ağ rəng fəlakət, qırmızı isə xoşbəxtliyin simvoludur

**Dünyada gəlinlər toy günü bəyaza büründüyü halda Çində bu, qəbulolunmazdır. Çünki çinlilər üçün yas, qəm və kədəri təcəssüm etdirən ag rəng matəm və xəstəlik zamanı istifadə olunur.**



Bu ölkədə toy "qırmızı" bayramdır. Çinlilərin toyunda bütün toy atributları qırmızı rəngə bürünür. Bunun səbəbinə gəlincə onların nəzərində qırmızı rəng xoşbəxt həyatın, sevginin, sevinc və çiçəklənmənin simvoludur.

Ölkədə rəqəmlərə münasibət də fərqlidir. Çinlilərin uğursuz rəqəmi dörddür. Çünki bədbəxtlik gətirdiyi hesab olunan dördün tələffüzü "ölüm" sözünü xatırladır. Məhz bu səbəbdən də Çində 4 nömrəli mənzillər tapa bilməzsiniz. Şanslı rəqəm isə səkkizdir. Çinlilərin fikrincə, 8 rəqəmi şans, sərvət və zənginliyin simvoludur.

## Panda - böyük dəyər



Çinin ən böyük dəyərləri sırasında pandalar xüsusi yer tutur. Bu sevimli heyvanları Çin hökuməti heç bir zooparka satmır. Hökümətin tətbiq etdiyi icazə şərtlərinə əsasən, onları yalnız icarəyə vermək olar.

İcarə qaydalarına görə isə ölkə bir panda üçün ildə 1 milyon dollar alır. Şərtlərdə yer alan digər vacib məqam budur: əgər xaricdə bir panda doğulursa, genofondun zənginləşdirilməsi üçün o, mütləq Çinə qaytarılmalıdır.

## Pandemiyanın səbəbkarı




**Qədim dünya tarixində bir çox yeniliyə imza atan Çin dünyanın yeni tarixinə də öz adını yazdırıb. Amma təəssüf ki, bu dəfə yaxşı mənada deyil...**

Çin dünyada hazırda davam edən COVID-19 pandemiyasının başlanmasına səbəb olan ölkə kimi tarixə düşüb.

2019-cu il dekabr ayının ortalarında Çinin mərkəzi Hubey əyalətinin Uhan şəhərində yerli sakinlərdə pnevmoniya xəstəliyinə səbəb olan naməlum mənşəli virus aşkarlanıb. 2019-cu il dekabr ayının 31-də Çin naməlum pnevmoniya xəstəliyinin yayılması barədə Ümumdünya Səhiyyə Təşkilatına məlumat verib.

Çin alimləri naməlum virusun yeni növ koronavirus olduğunu təyin ediblər.

Ümumdünya Səhiyyə Təşkilatı fevralın 11-də infeksiyanın adını COVID-19 qoyub, martın 11-də isə koronavirusu pandemiya elan edib.



# Sağlıq olsun

## Müalicə və fəlsəfənin harmoniyası

**Həkim məsləhəti**

**5 min illik tarixə malik qədim Çin təbabəti xalqın ənənə və fəlsəfəsinə əsaslanan bütöv bir tibb sistemidir. Bu təbabətin özəlliyi odur ki, bütöv müalicə konsepsiyasına diqqət yetirir və bədənin ona veriləcək doğru stimullaşdırıcı təsiri ilə özünü sağaldacağı fikrini müdafiə edir.**



Vahid müalicə bədəni, ağlı, ruhu və duyğuları bütün olaraq araşdırır. Həm də bu bütövlüyü mühafizə edərkən onların arasındakı tarazlığı da qorumağı hədəfləyir. Ənənəvi Çin təbabətinə görə, yediyimiz yeməklər, etdiyimiz məşqlər, yuxu rejimimiz və yaşadığımız mühit insan sağlamlığına təsir edən əsas amillərdir və bunlara böyük diqqət yetirilməlidir.

Qədim Çin mütəfəkkirləri insan quruluşunu araşdırarkən insanla kainat arasında sıx əlaqə tapıblar. Onlar kainat və təbiət qanunlarını izah edərək insanların təbiətdən gəldiyini və təbiətin ayrılmaz bir hissəsi kimi qiymətləndirib və buna görə insan quruluşunu şərh ediblər. Çinli mütəfəkkirlər təbiətdəki hər şeyin bir enerjidən ibarət olduğunu düşünüblər.

### Bədənimizdən axan həyat enerjisi

Çinlilərin İn-Yan (İn ay, Yan isə günəş) adlandırdıqları dövr qarşı-qarşıya gələn iki qüvvənin tarazlığıdır. İn soyuqluğu, mənfiliyi, gecəni təmsil edərkən Yan istiliyi, pozitivliyi, atəşi, gündüzü ehtiva edir. Əslində kainatdakı iki əks qütb bir-birini tamamlayır. Biri o biri olmadan mövcud ola bilməz. Ənənəvi Çin təbabətini bu baxımdan araşdırdıqda insan bədəninin İn-Yan kimi bir-birinə zidd olan, lakin bir-birini tamamlayan elementlərdən ibarət olduğu görünür. Bədənin orqan və toxumaları funksiyalarına və ya yerləşmələrinə görə İn və Yan kimi təsnif edilir. Misal üçün, alt bədənə qarşı yuxarı bədən, daxili orqanlar bədən səthinə qarşı, udulmaya qarşı atılma və s. Bu vahidlər bir-biri ilə qarşılıqlı əlaqə qurur.

Taoizmdən qaynaqlanan bu düşüncəyə əsasən gördüyümüz hər şey kainatı təşkil edən İn-Yan enerjisinin bir əksidir. Hər şey İn-Yan-ın Yer üzündə əks olunduğu və həyat enerjisi olaraq təyin olunan çi-dən (həyat enerjisi) ibarətdir.

Bədənimizdən axan həyat enerjisi insan bədəninin sağlamlığını və gücünü təmin edir. Çi bədəndən ayrıldıqda da ölüm baş verir. Bədənimiz çi olmadan canlılığı qoruya bilməz. Buna görə çi insan həyatı üçün böyük əhəmiyyətə malikdir.

İnsan bədənində çi hər biri bir orqan tərəfindən idarə olunan 12 meridian kanalından keçir. Dərinin səthinə yaxın olan meridianlar akupunktur nöqtələrini təşkil edir. Akupunktur nöqtələrinə tətbiq olunan iynələr və masaj kimi müalicələrlə bədəndəki çi və İn-Yan axını tarazlaşır və bədənin özü sağalır.

### Zehni və fiziki sağlamlığımız buna görə pisləşir...

Çi-ni insan bədən orqanlarına, sümüklərə, dəriyə, ümumiyyətlə, bütün bədənimizə aparan yollar meridianlar adlandırılır. Amma meridianları qan damarları ilə qarışdırmaq olmaz. Meridianların yerləşdiyi yerlər anatomik olaraq təyin olunmasa da, ənənəvi Çin təbabəti xəstəlikləri müəyyən və müalicə etmək üçün əsrlərboyu onlardan istifadə edir. Bədənimizdəki meridianlardan axan çi bəzi nöqtələrdə cəmləşmişdir və bu nöqtələrə akupunktur nöqtələri deyirik. Hər bir akupunktur xüsusi bir meridian vasitəsilə bədənimizdəki orqan və toxumalara bağlanır. Vücudumuzda axan çi enerjisinin tarazlığı akupunktur nöqtələrinin tıxanması nəticəsində pozulduqca, zehni və fiziki sağlamlığımız pisləşir.

Ənənəvi Çin təbabəti xəstəliklərə fərqli yanaşmaqla bərabər, müalicədə də Qərb təbabətindən tamamilə fərqli üsullar tətbiq edir. Burada İn-Yan qüvvələrinin çatışmazlığını və meridianlarda çi axınının tarazlığını pozub balanslaşdıraraq müalicə edirlər. Tətbiq olunan müalicə metodlarından bəziləri bunlardır; akupunktura, çömçə, bitki müalicəsi, masaj, tibbi qidalanma, moxa terapiyası və s.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

**Yaşam**

## Döyüşərək sağalın

**Ənənəvi Çin təbabətində ən yaxşı müalicənin xəstələnməyin qarşısının alınması olduğunu qeyd etdik.**



Qigong bir döyüş sənəti olsa da, bədəndəki çi enerjisini artırmağa kömək edir və bədənin müqavimətini artıraraq sağlamlığımızı qorumağa xidmət edir. Min illərdir çinlilər Qigongla məşğul olur. Yüzlərlə insanın Çin küçələrində səhər tezdən Qigong və Taijiquan kimi məşqlər etdiyini görmək mümkündür.

**Xalq təbabəti**

## İynələrin gücü



**Akupunktura (iynəbatırma) ənənəvi Çin təbabətinin bir qolu olub, müalicə məqsədilə bədənin müəyyən nöqtələrinə xüsusi iynələrin batırılması ilə həyata keçirilir. Bir müalicə üsulu kimi akupunktura yüzilliklərlə inkişaf edib.**

1951-ci ildə Çində (Pekin şəhərində) akupunktura metodları üzrə eksperimental institut yaradılıb, 1955-ci ildə isə o, elmi tətqiqat institutuna çevrilib. Təxminən elə həmin vaxtlardan akupunktura bütün dünyada əlavə müalicə metodu kimi geniş miqyasda istifadə olunmağa başlanıb.

Hazırda Çində, Yaponiyada, Koreyada akupunktura xroniki xəstəliklərin müalicəsində tətbiq olunur. Bu ölkələrdə akupunktura sakitləşdirici və tonuslandırıcı metod kimi də geniş istifadə olunur. Həmçinin cərrahiyyədə və tibbin digər sahələrində iynəbatırmaya müraciət edilir.

Hər bir insanın bədənində 500-dən çox nöqtə mövcuddur ki, bunlara təsir edərək müxtəlif xəstəlikləri müalicə etmək, orqanizmin ümumi vəziyyətini, həyat enerjisini tənzimləmək mümkündür.

Bu metod bədənin bir çox fərqli nöqtəsinə edilə bilər, lakin ən təsirli nöqtələri qulaqdadır.

Qulaqdakı müəyyən nöqtələrə təzyiqlər müxtəlif orqanlara, bədənin ayrı-ayrı hissələrinə müsbət təsir göstərir. Bu metoddan həm də rahatlamaq, stresdən azad olmaq və bədənin təsirini artırmaq üçün də istifadə edilə bilər.

*Qulaqdakı nöqtələrə təzyiq nəticəsində bütün bədən müalicə edilir*

İynəbatırma qulaqdakı nöqtələrə təzyiq göstərməklə bütün bədəni müalicə edə biləcək bir üsuldur. Qulaqda müəyyən maqnit sahələri var. Bu sahələr elektro-nevroloji ölçmələrlə qulaqdakı siqnalları ölçür. Bu siqnal nöqtələrindən bəzilərinə daimi kiçik iynələr yapışdırılır. Gün ərzində bu nöqtələrə iynə basır və müalicə etmək istədiyiniz yerləri xəbərdar edirsiniz.

Qulaqlar və ayaqlar bədənin başlanğıc və son yerləridir. Bu bölgələrdəki əsas nöqtələr sayəsində bədəninizin maddələr mübadiləsində aktiv fəaliyyət yarada bilərsiniz. Dəri xəstəlikləri, mədə, onurğa, burun, qarın, əllər, gözlər və s. bölgələrdəki xəstəlikləri qulaqdakı nöqtələrdən stimullaşdırmaq olar.

Böyrəküstü vəzlərdən allergiya nöqtələrinə, iştaha nəzarətdən stres pozğunluqlarına, yüksək təzyiqdən əzələ gərginliyinə qədər problemlər qulaq nöqtəsinə iynəbatırma yolu ilə demək olar ki, ağrı-acısız, dərman olmadan müalicə edilə bilər.

Arıqlamaq, miqren baş ağrısını aradan qaldırmaq kimi möcüzələri ilə məşhur olan bu metod əslində nəticələri gözlə görülən alternativ tibb üsuludur.

**Şəfalı bitkilər**

## "Həyat kökü"



**Çin təbabətində ən geniş istifadə edilən bitkilərdən biri "həyat kökü" adlandırdıqları jenşen bitkisidir. Çinlilər bu dərman bitkisinin bir çox xəstəliklərin əlacı olduğu qənaətindədirlər.**

Ta qədimdən jenşen cavanlığı qoruyan, insanın ömrünü uzadan vasitə sayılır. Hazırda jenşenin faydalı xüsusiyyətləri ənənəvi tibdə də təsdiq olunub və bu bitki bir çox dərman preparatlarının tərkibinə daxil edilir.

Müalicə zamanı əsasən kökündən istifadə olunan jenşenin faydası çox olur:

- orqanizmin müxtəlif infeksiyalara qarşı davamlılığını artırır, sağalmanı tezləşdirir;
- insanın mərkəzi sinir sisteminə çox müsbət təsir edir - yaddaşı möhkəmləndirir, yuxusuzluqdan və depressiyalardan azad edir, stresi azaldır;
- təbii tonuslaşdırıcı vasitədir - insanı daha gümrah və fəal edir, əqli yorğunluğu azaldır, iş qabiliyyətini yaxşılaşdırır;
- ürək-damar sisteminə olduqca müsbət təsir edir, bu sistemə aid xəstəliklərin inkişafının qarşısını almağa kömək edir - ürəyin əzələsini qoruyur, arterial təzyiqi tənzimləyir, qanda xolesterinin səviyyəsini aşağı salır, damarlarda trombların əmələ gəlməsinin qarşısını alır;
- qanda şəkərin səviyyəsini aşağı salır.

**Qədim ənənə**



## Moxa terapiyası

Çin həkimləri min illərdir ənənəvi müalicə üsulu olaraq akupunktura ilə yanaşı, moxa terapiyasından da istifadə edirlər. Bu müalicə üsulunda isti yovşan bitkisi ilə akupunktur nöqtələrini yandırmaqla bədənin Yan enerjisi təmin edilir və qırılan İn-Yan tarazlığı bərpa olunur. Yovşan yalnız moxa terapiyasında deyil, həm də bitki çayının və dərmanların da hazırlanmasında istifadə olunur.

**Düzgün qidalanma**

## Yemək yeyərkən həddi aşmayın



**Ənənəvi Çin təbabətində tibb və qidalanma bir bütün olaraq qəbul edilir. Dərman içmək və yalnız xəstə olduqda sağalmaq ənənəvi Çin təbabətinin məntiqinə ziddir.**

Bu təbabət xəstəliyin ortaya çıxmasından əvvəl profilaktikanı ən yaxşı müalicə üsulu olaraq görür və Çinin qida mədəniyyəti buna uyğun olaraq formalaşır. Yemək yeyərkən əməl ediləcək qaydalar da Çin təbabəti və fəlsəfəsi tərəfindən formalaşdırılmışdır. Bu ənənələrdən bəziləri belədir:

- yemək yeyərkən həddi aşmayın;
- mövsümə uyğun meyvə və tərəvəz yeyin;
- tərəvəzlərin bişdiyinə əmin olun;
- oturun və sakit bir yerdə yemək yeyin;
- yaxşı çeynəyin;
- yavaş-yavaş yeyin;
- yediyiniz yeməklərdən zövq alın;
- nahardan sonra bir az yatın.

## “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxs
## *açıq tender elan edir*

Tender iştirakçıları https://www.etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzalar vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Tender 1 LOT üzrə keçirilir.

**LOT-1.** Sosial reklam çarxının hazırlanması xidmətinin satın alınması.

İştirak haqqının ödənilməsi yalnız “ASAN ödəniş” vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək üçün Portal üzərindən müsabiqəyə daxil olduqdan sonra “ASAN ödəniş et” düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak edə bilərsiniz.

İştirak haqqı:

**LOT-1. 150.00 (bir yüz əlli) manat.**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

**Təşkilat: “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: “Kapital Bank” ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK -AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1) Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.
2) Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi orqanından arayış.
3) İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış.
4) İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti).
5) Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır).
6) Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).
7) Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat.
8) Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat.
9) Tender iştirakçısının satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmasının təsdiqi kimi kiçik, orta, yaxud hüquqi şəxslər birliyinin daxilində mikro sahibkarlıq subyekti olması haqqında müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş arayış.
10) Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış.
11) Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə).
12) İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.
13) Tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.

Qeyd olunan sənədlər Azərbaycan dilində düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə, satınalan təşkilat tenderdə iştirak etmək istəyən malgöndərəni (podratçını) iddiaçı kimi qeydə alacaqdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 20.05.2021-ci il saat 18:00-dək, tender təklifi və tender təklifinin bank təminatını isə 31.05.2021-ci il saat 17:00-dək Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçının təklifləri 01.06.2021-ci il tarixdə saat 18:00-da Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər. İddiaçılar tender ilə bağlı sualları vahid internet Portalında nəzərdə tutulmuş müvafiq bölmədə satınalan təşkilata ünvanlaya bilərlər. İddiaçı Əsas şərtlər toplusunun məzmununu, o cümlədən təlimatları, formaları və şərtləri tam olaraq öyrənməlidir. Əsas şərtlər toplusunu almış iddiaçının Əsas şərtlər toplusunun məzmunundan, o cümlədən təlimatlardan, forma və şərtlərdən kənar təklif verməsi onu bu məsuliyyətdən azad etmir. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***


# OXUCULARIN NƏZƏRİNƏ!
# “AZƏRBAYCAN”

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *“Azərpoçt” ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxs
## *açıq tender elan edir*

Tender iştirakçıları https://www.etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzalar vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Tender 1 LOT üzrə keçirilir.

**LOT-1.** Reklam löhvələrinin üzərində yerləşdiriləcək məlumatların məzmununun və dizayn konsepsiyasının hazırlanması xidmətinin satın alınması.

İştirak haqqının ödənilməsi yalnız “Asan ödəniş” vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək üçün Portal üzərindən müsabiqəyə daxil olduqdan sonra “ASAN ödəniş et” düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak edə bilərsiniz.

İştirak haqqı:

**LOT-1. 30.00 (otuz) manat.**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

**Təşkilat: “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: “Kapital Bank” ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK -AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1) Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.
2) Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi orqanından arayış.
3) İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış.
4) İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti).
5) Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır).
6) Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).
7) Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat.
8) Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat.
9) Tender iştirakçısının satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmasının təsdiqi kimi kiçik, orta, yaxud hüquqi şəxslər birliyinin daxilində mikro sahibkarlıq subyekti olması haqqında müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş arayış.
10) Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olması haqqında vergi orqanı tərəfindən verilmiş arayış.
11) Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə).
12) İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.
13) Tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.

Qeyd olunan sənədlər Azərbaycan dilində düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə, satınalan təşkilat tenderdə iştirak etmək istəyən malgöndərəni (podratçını) iddiaçı kimi qeydə alacaqdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 19.05.2021-ci il saat 18:00-dək, tender təklifi və tender təklifinin bank təminatını isə 27.05.2021-ci il saat 17:00-dək Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçının təklifləri 31.05.2021-ci il tarixdə saat 18:00-da Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər. İddiaçılar tender ilə bağlı sualları vahid internet Portalında nəzərdə tutulmuş müvafiq bölmədə satınalan təşkilata ünvanlaya bilərlər. İddiaçı Əsas şərtlər toplusunun məzmununu, o cümlədən təlimatları, formaları və şərtləri tam olaraq öyrənməlidir. Əsas şərtlər toplusunu almış iddiaçının Əsas şərtlər toplusunun məzmunundan, o cümlədən təlimatlardan, forma və şərtlərdən kənar təklif verməsi onu bu məsuliyyətdən azad etmir. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxs
## *açıq tender elan edir*

Tender iştirakçıları https://www.etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzalar vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Tender 2 LOT üzrə keçirilir.

**LOT-1.** İcbari tibbi sığortanın Xidmətlər Zərfi çərçivəsində xidmət alan vətəndaşların məmnunluğunu ifadə edən bədii janrda video çarxların hazırlanması xidmətlərinin satın alınması.

**LOT-2.** İcbari tibbi sığorta ilə bağlı maarifləndirici infoqrafik və animasiya videolarının hazırlanması xidmətinin satın alınması;

İştirak haqqının ödənilməsi yalnız “ASAN ödəniş” vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək üçün Portal üzərindən müsabiqəyə daxil olduqdan sonra “ASAN ödəniş et” düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak edə bilərsiniz.

İştirak haqqı:

**LOT-1. 200.00 (iki yüz) manat.**
**LOT-2. 150.00 (bir yüz əlli) manat.**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

**Təşkilat: “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: “Kapital Bank” ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK -AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1) Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.
2) Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi orqanından arayış.
3) İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış.
4) İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti).
5) Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır).
6) Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).
7) Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat.
8) Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat.
9) Tender iştirakçısının satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmasının təsdiqi kimi kiçik, orta, yaxud hüquqi şəxslər birliyinin daxilində mikro sahibkarlıq subyekti olması haqqında müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş arayış.
10) Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış.
11) Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə).
12) İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.
13) Tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.

Qeyd olunan sənədlər Azərbaycan dilində düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə, satınalan təşkilat tenderdə iştirak etmək istəyən malgöndərəni (podratçını) iddiaçı kimi qeydə alacaqdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 19.05.2021- ci il saat 17:00-dək, tender təklifi və tender təklifinin bank təminatını isə 27.05.2021-ci il saat 18:00-dək Portal vasitəsi ilə təqdim etməlidirlər.

İddiaçının təklifləri 31.05.2021-ci il tarixdə saat 17:00-da Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər. İddiaçılar tender ilə bağlı sualları vahid internet portalında nəzərdə tutulmuş müvafiq bölmədə satınalan təşkilata ünvanlaya bilərlər. İddiaçı Əsas şərtlər toplusunun məzmununu, o cümlədən təlimatları, formaları və şərtləri tam olaraq öyrənməlidir. Əsas şərtlər toplusunu almış iddiaçının Əsas şərtlər toplusunun məzmunundan, o cümlədən təlimatlardan, forma və şərtlərdən kənar təklif verməsi onu bu məsuliyyətdən azad etmir. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

# İrandan Azərbaycana narkotik vasitələr keçirilməsi cəhdlərinin qarşısı alınıb

Dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri davam etdirilir.







Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən bildiriblər ki, aprelin 21-də DSX-nin Sərhəd Qoşunlarının “Horadiz” sərhəd dəstəsinin xidməti ərazisində Füzuli rayonunun Aşağı Yağlıvənd kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində dövlət sərhədini pozaraq qanunsuz yolla Azərbaycan Respublikasından İran İslam Respublikasına keçməyə cəhd edərkən Azərbaycan vətəndaşı 1981-ci il təvəllüdlü Abdurəhmanov Azər Fərrux oğlu sərhəd pozucusu qismində saxlanılıb.

Araşdırma zamanı A.Abdurəhmanovun əvvəllər dəfələrlə məhkum edildiyi, qaçaqmalçılıq yolu ilə İrandan Azərbaycana narkotik vasitələr gətirmək məqsədilə dövlət sərhədini keçmək niyyətində olduğu müəyyənləşdirilib.

Həmin gün DSX-nin Sərhəd Qoşunlarının “Lənkəran” sərhəd dəstəsinin xidməti ərazisində Astara rayonunun Sım kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində İran İslam Respublikasından Azərbaycan Respublikası ərazisinə hərəkət edən iki naməlum şəxsin dövlət sərhədini pozması sərhəd naryadı tərəfindən müşahidə edilib. Sərhəd naryadının “Dayan” əmrinə tabe olmayan sərhəd pozucuları əllərindəki bağlamanı ataraq havanın qaranlıq, ərazinin isə meşəlik olmasından istifadə edərək geriyə qaçıblar.

Ərazi dərhal qapadılaraq, keçirilmiş axtarış tədbirləri nəticəsində bir ədəd çantanın içərisində ümumi çəkisi 8 kiloqram 555 qram narkotik vasitəyə (7550 qram tiryək, 1005 qram heroin və 5000 ədəd metodon-40 həbi) oxşar maddə aşkarlanaraq götürülüb.

Hər iki fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Paşinyan repressiyaların yeni dalğasını başladır

*Əvvəli 1-ci səh.*

Onun sözlərinə görə, vətəndaş hüquq mühafizə orqanlarına aparıldıqdan dərhal sonra prosessual status ala bilmir: “Əgər hərəkətlərində cinayət tərkibinin olmadığı ortaya çıxsa, ona qarşı heç bir tədbir görülməyəcək”.

Həbslərdən sonra iqtidar və müxalifət arasında yeni gərginlik və toqquşma başlanıb. Ermənistan Baş Prokurorluğunun binası qarşısına toplaşanlar Zəngəzur vilayətində tutulanların azad olunmasını tələb edirlər. Etirazçılar bildirirlər ki, onlar qanunsuz saxlanılıb. Etirazçılar binaya yumurtalar atıb. Bundan sonra polislə aksiya iştirakçıları arasında qarşıdurma baş verib. Daha sonra aksiyaçılar polisə butulkalar atıblar. Toqquşma zamanı polis əməkdaşlarından biri xəsarət alıb. Qarşıdurma ilə əlaqədar 14 etirazçı saxlanılıb.

Belə bir vaxtda Ermənistanın Baş Prokurorluğu Robert Koçaryanın, Seyran Ohanyanın, Yuri Xaçaturovun və Armen Gevorkyanın “1 mart işi” üzrə cinayət təqibindən azad olunmasına dair birinci instansiya məhkəməsinin hökmündən şikayət verib. Prokurorluğun sözçüsü Arevik Xaçaturyan faktı təsdiq edib. Xatırladaq ki, keçmiş prezident və onun tabeçiliyində olmuş üç nəfər aprelin 6-da cinayət məsuliyyətindən azad olunublar. Buna səbəb Cinayət Məcəlləsinin sözügedən fiqurantlara qarşı dövlət çevrilişi ittihamını ehtiva edən 301.1-ci maddəsinin Konstitusiya Məhkəməsi tərəfindən ləğvi olub. Halbuki Ermənistan Xüsusi İstintaq Xidməti 26 aprel 2018-ci ildə Koçaryana qarşı konstitusiya quruluşunun devrilməsi ittihamını irəli sürmüşdü.

Xatırladaq ki, Koçaryan 2008-ci il martın 1-də baş vermiş qanlı hadisələrdə ittiham edilirdi. Keçmiş prezident isə bu ittihamın “qondarma və siyasi motivli” olmasını bildirir. Eyni maddə ilə KTMT-nin keçmiş baş katibi Yuri Xaçaturov, keçmiş müdafiə naziri Seyran Ohanyan və Ermənistanın prezident administrasiyasının keçmiş rəhbəri Armen Gevorkyan da ittiham olunurdular.

İndi adıçəkilən şəxslər üzrə Baş Prokurorluq əvvəlki ittihamları yeniləyir. Bu da həmin şəxslərin yenidən həbsə atılmasını istisna etmir. Göründüyü kimi, Paşinyan repressiyaların yeni dalğasını başladır. Hesab edilir ki, inzibati metodların işə salınması ilə müxaliflərin neytrallaşdırılması fonunda iyunun 20-də keçiriləcək parlament seçkilərində Paşinyan və komandası daha asan qələbə əldə edəcək.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

## ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) İdarə Heyətinin sədri Aslan Aslanova anası

**ZİNYƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Azərenerji” ASC-nin kollektivi Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanova atası

**ƏHƏD SÜLEYMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ənvər Seyidov Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) İdarə Heyətinin sədri Aslan Aslanova anası

**ZİNYƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5206
Sifariş 725
Qiyməti 40 qəpik